RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 242 (9987) 14 noyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# "Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir"

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib

Özbəkistan Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiqdir. Bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir.

Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir. Prezidentin dövlətlərarası münasibətlərimizin inkişafına şəxsi töhfəsini, onun çoxşaxəli əməkdaşlığımızın ardıcıl olaraq gücləndirilməsinə daim diqqət yetirməsini xüsusi vurğulamaq istərdim.

Qardaş Özbəkistanın lideri, görkəmli dövlət xadimi və Azərbaycanın böyük dostu Prezident Şavkat Mirziyoyevi ölkəmizdə salamlamaq bizim üçün həmişə böyük şərəf və məmnuniyyətdir. Qeyd etdiyiniz kimi, son bir il yarım ərzində beş belə səfər olub. Bütün bunlar münasibətlərimizin yüksək dinamikasını əyani şəkildə göstərir.

Keçən ilin avqustunda mənim Özbəkistana dövlət səfərim oldu, bu ilin iyulunda isə Özbəkistan Prezidenti Azərbaycana dövlət səfəri etdi. Bu tarixi səfərlər zamanı onlarla mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalandı. Qısa müddət ərzində çox böyük işlər görüldü. Bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib.

Həmçinin 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır. Şura artıq qarşılıqlı dövlət səfərləri çərçivəsində 2024-cü il avqustun 22-də Daşkənddə və 2025-ci il iyulun 2-də Bakıda iki iclas keçirib.

2

# Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri bir ailə kimi dinc və sülh şəraitində yaşayırlar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib.

3

# Təvazökar, ədalətli, prinsipial və xalqın içində olun

## Prezidentin yerli icra orqanları rəhbərlərindən tələbi budur



Prezident İlham Əliyev son vaxtlar ölkəni bu cür kadrlardan xilas etmək üçün olduqca səmərəli islahatlar keçirir. Bu islahatlar nəticəsində iqtisadi və siyasi idarəetmə yenilənir, cəmiyyət başqa bir vətəndaş-məmur mərhələsinə keçir. Dövlət başçısı yolunu azmış məmurları, idarəçilikdə özbaşınalıq edən vəzifəli şəxsləri tutduqları vəzifədən azad edərkən cəmiyyət onların ötürdükləri neqativ enerjidən təmizlənmiş olur. Dövlət başçısının kadr siyasəti və struktur dəyişikliyi özünün də dediyi kimi, iqtisadi müstəqilliyimizin təminidir. Çünki iqtisadi müstəqillik gücləndikcə milli iradə möhkəmlənir, kənar müdaxilələr aradan qalxır. Dövlət idarəçiliyində güclü kadrların olması, milli düşüncəli gənclərin vəzifələrə təyin olunması "insan kapitalı" prinsipinə xidmət edir. Bu cür kadrlar ölkənin sərvəti hesab olunurlar. Ona görə də düzgün aparılan kadr siyasəti ölkənin strateji ehtiyatlarının idarə edilməsində alternativsizlik sərgiləyir. Bu baxımdan, Prezidentin islahatlara yol açan fəaliyyəti novatorluq, çeviklik və şəffaflığın əhəmiyyətini artırır. "İslahatlara alternativ yoxdur", - deyən İlham Əliyevin bugünkü kadr siyasəti dövlət idarəçiliyində çox böyük rol oynayır.

6

# Azərbaycan COP29 irsini davam etdirir

## Bu dəfə Braziliyada keçirilən COP30-da




Bakı böyük uğurla yekunlaşan COP29-dan sonra estafeti Belemə - COP30-a verib. COP29-un missiyasını simvolizə etmək üçün ölkəmiz COP30-dakı pavilyonunu "Həmrəylik evi" adlandırıb. Pavilyonumuzun "İrs zalı" guşəsində həm qlobal COP29 irsi, həm də Azərbaycanın uzunmüddətli mədəni-ekoloji ənənələri sərgilənir. Burada şəffaflıq, su ehtiyatlarının iqlim dəyişmələrinə davamlılığı, sülh quruculuğu və insan inkişafını ehtiva edən səkkiz əsas təşəbbüs interaktiv formatda nümayiş olunur.

5

# Hərbi gücümüz artır

## Yaxın gələcəkdə Azərbaycan şirkətləri hərbi təyinatlı modern məhsullar istehsal edəcəklər



8



# "Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir"

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib

**- Hörmətli cənab Prezident, Siz tezliklə Daşkənddə keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak etməyə hazırlaşırsınız. Siz regional əməkdaşlığın bu formatı barədə nə deyə bilərsiniz? Azərbaycanın bu regionla əlaqələri necə inkişaf edir və əməkdaşlığın indiki səviyyəsi Sizi qane edirmi?**

- Əvvəlcə, qeyd etmək istəyirəm ki, bu, mənim Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə sayca üçüncü iştirakım olacaq. Dəvət aldığım ilk görüş 2023-cü ildə Düşənbədə, ikincisi isə 2024-cü ildə Astanada keçirilib və qarşıdakı görüşün Daşkənddə keçirilməsi gözlənilir. Mən dəvətə həmçinin Azərbaycanın bu mühüm tədbirdə iştirakına göstərilən dəstəyə görə bütün həmkarlarıma, ilk növbədə isə qardaşım Şavkat Mirziyoyevə səmimi təşəkkürümü bildirirəm.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. İlk baxışda Azərbaycanı Mərkəzi Asiya ölkələrindən fiziki olaraq ayırsa da, Xəzər dənizi, əslində, mühüm birləşdirici amildir. Bu gün Xəzər dənizi, sadəcə coğrafi anlayış deyil, o hər şeydən əvvəl xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir.

Ölkələrimizi təkcə coğrafiya deyil, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir.

Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Hesab edirəm ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoqumuz və qarşılıqlı səfərlərimiz bu əməkdaşlıq formatının uğurunda mühüm rol oynayır.

Son bir neçə ildə dövlət başçıları arasında qarşılıqlı səfərlərin və təmasların dinamikası münasibətlərimizin yüksək səviyyəsini əyani şəkildə nümayiş etdirir. Belə ki, son üç ildə Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycana təxminən 30 səfər ediblər və mən özüm də həmin müddətdə qardaş ölkələrdə 13 dəfə səfərdə olmuşam.

Orta dəhlizin artan əhəmiyyəti əməkdaşlığımızın genişləndirilməsi üçün əhəmiyyətli imkanlar yaradır.

Əminəm ki, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşü qardaş xalqlarımız arasında əsrlər boyu davam edən dostluğun möhkəmləndirilməsində, siyasi, iqtisadi, nəqliyyat, investisiya, enerji, mədəni, humanitar və rəqəmsal transformasiya sahələrində çoxsəviyyəli əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli mərhələ olacaq.

**- Hörmətli cənab Prezident, Siz Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı səfərlərin intensivliyini, fəal siyasi dialoqu və yüksəksəviyyəli qarşılıqlı anlaşmanı vurğuladınız. Diqqət yetirdik ki, son bir il yarım ərzində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana beş dəfə səfər edib. Bundan başqa, Siz il ərzində müxtəlif beynəlxalq məkanlarda bir neçə dəfə görüşmüsünüz. Azərbaycan ilə Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının hazırkı 30-cu ildönümündə ikitərəfli əlaqələrin vəziyyətini necə xarakterizə edərdiniz?**

- Özbəkistan Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiqdir. Bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir.

Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir. Prezidentin dövlətlərarası münasibətlərimizin inkişafına şəxsi töhfəsini, onun çoxşaxəli əməkdaşlığımızın ardıcıl olaraq gücləndirilməsinə daim diqqət yetirməsini xüsusi vurğulamaq istərdim.

Qardaş Özbəkistanın lideri, görkəmli dövlət xadimi və Azərbaycanın böyük dostu Prezident Şavkat Mirziyoyevi ölkəmizdə salamlamaq bizim üçün həmişə böyük şərəf və məmnuniyyətdir. Qeyd etdiyiniz kimi, son bir il yarım ərzində beş belə səfər olub. Bütün bunlar münasibətlərimizin yüksək dinamikasını əyani şəkildə göstərir.

Keçən ilin avqustunda mənim Özbəkistana dövlət səfərim oldu, bu ilin iyulunda isə Özbəkistan Prezidenti Azərbaycana dövlət səfəri etdi. Bu tarixi səfərlər zamanı onlarla mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalandı. Qısa müddət ərzində çox böyük işlər görüldü. Bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib.

Həmçinin 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır. Şura artıq qarşılıqlı dövlət səfərləri çərçivəsində 2024-cü il avqustun 22-də Daşkənddə və 2025-ci il iyulun 2-də Bakıda iki iclas keçirib.

Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü dəyişməz olaraq dəstəkləyib. Fürsətdən istifadə edərək qardaş Özbəkistana Qarabağın bərpasına verdiyi töhfəyə, xüsusən də azad edilmiş Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisinə görə minnətdarlığımı bildirirəm. Özbəkistan Qarabağ bölgəsinin yenidən qurulmasına yardım göstərmək təşəbbüsünü irəli sürən ilk ölkə, Prezident Mirziyoyev isə dünyada ilk lider olub. Biz bunu həmişə xatırlayacaq, ölkələrimiz və xalqlarımız arasında həmrəylik, dostluq və qardaşlıq jesti kimi qəbul edəcəyik.

Qardaş ölkəyə qarşıdakı səfəri səbirsizliklə gözləyirəm. Hər dəfə Özbəkistanın dinamik inkişafını və özbək xalqının əldə etdiyi heyranedici nailiyyətləri böyük məmnunluqla müşahidə edirəm. Həyata keçirilən genişmiqyaslı islahatlar və cəmiyyətin bütün sahələrinin ardıcıl müasirləşdirilməsi ölkənin nüfuzunun davamlı artmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir. Bu nailiyyətlər dostum və qardaşım Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətinin göstəricisidir.

Ölkələrimiz arasında əməkdaşlıq təkcə ikitərəfli formatda deyil, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatının fəal üzvləridir və türk birliyinin möhkəmləndirilməsinə mühüm töhfələr verirlər. Bundan əlavə, münasibətlərimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

**- Azərbaycan ilə Özbəkistan arasında iqtisadi-ticari əməkdaşlığın hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?**

- İqtisadi-ticari əməkdaşlığın dinamikası tam məmnunluq doğurur və onun səviyyəsinin daha da artmasına kömək edir. Hər iki tərəf qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərir.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb.

Sərmayələr sahəsində əməkdaşlıq da möhkəmlənməyə davam edir. Bu günədək Özbəkistan Azərbaycan iqtisadiyyatına 21,8 milyon ABŞ dolları, həmçinin Azərbaycan Özbəkistan iqtisadiyyatına 183,5 milyon ABŞ dolları sərmayə qoyub. 2023-cü ildə həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb.

Yüngül sənayenin inkişafı üçün yeni imkanlar açan, ənənəvi dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirən birgə müəssisə - Xankəndidə tikiş fabriki xüsusilə diqqətəlayiqdir.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın iqtisadi əlaqələrin inkişafı və perspektivli işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi sahəsindəki aktiv fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Artıq mütəmadi olaraq keçirilən Azərbaycan-Özbəkistan Regional Forumu bu istiqamətdə əməkdaşlığın təşviqi üçün səmərəli platformadır.

Azərbaycan qardaş Özbəkistan ilə iqtisadiyyatın bütün sahələrində əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır. Bunun üçün güclü siyasi iradə və əhəmiyyətli potensial mövcuddur. Bu günədək iqtisadi münasibətlərimizin daha da inkişafı üçün etibarlı hüquqi baza yaradan təxminən 200 sənəd imzalanıb. Azərbaycan hər iki tərəfin maraqlarına uyğun olan və xalqlarımız arasında dostluğun, tərəfdaşlığın möhkəmlənməsinə töhfə verən qarşılıqlı faydalı əməkdaşlığı bundan sonra da dəstəkləyəcək.

**- Nəqliyyat, logistika və energetika sahələrində ikitərəfli əməkdaşlığın hansı perspektivlərini görürsünüz?**

- Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Bu sahədə ölkələrimizin Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirakı xüsusi əhəmiyyətə malikdir və onun çərçivəsində Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Son illərdə Orta dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir.

2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir.

Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək.

Hava nəqliyyatının inkişafı və şəhərlərimiz arasında uçuşların intensivliyi xüsusi əhəmiyyət kəsb edir. AZAL müntəzəm sərnişin reysləri - Bakı-Daşkənd-Bakı (həftədə 7 uçuş), Bakı-Səmərqənd-Bakı (həftədə 2 uçuş) və Bakı-Ürgənc-Bakı (həftədə 2 uçuş) həyata keçirir. Öz növbəsində, "Uzbekistan Airways" Daşkənd-Bakı-Daşkənd marşrutu üzrə həftədə üç, "Centrum" isə həftədə iki uçuş yerinə yetirir.

Energetika sektorunda əməkdaşlıq və "yaşıl enerji"nin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neftkimya məhsullarını ixrac edir. 2016-cı ildən bəri OZLITINEFTGAZ İnstitutunun və "SOCAR NIPI Nefteqaz"ın bazasında yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir.

2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər, memorandumlar imzalayıblar ki, bu da regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır.

**- Azərbaycan ilə Özbəkistan arasında mədəni və humanitar sahələrdə əməkdaşlıq barədə nə deyə bilərsiniz?**

- Mədəni və humanitar əməkdaşlıq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsində, həmçinin xalqlarımızın birbaşa əlaqələrinin genişləndirilməsində mühüm rol oynayır. Biz ortaq tarixi və mədəni dəyərləri qorumaq, bütün səviyyələrdə sıx əməkdaşlıq etmək üçün birgə səylər göstəririk.

Belə ki, 2023-cü ildə Azərbaycanda Özbəkistan Mədəniyyəti Günləri, 2024-cü ildə isə Özbəkistan Elm və Mədəniyyət Günləri keçirilib. Elə həmin il Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri, Xivə şəhərində isə "Şuşa günləri" təşkil olunub. Bu tədbirlər xalqlarımızın zəngin mədəni irslərini bölüşmək, qarşılıqlı anlaşmanı dərinləşdirmək və bir-birinin mənəvi məkanını qarşılıqlı şəkildə zənginləşdirmək istəyini əks etdirir.

Ölkələrimizin regionları arasında əməkdaşlığa xüsusi diqqət yetirilir. İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokand, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşma və tərəfdaşlıq münasibətləri qurulub. Bu cür regionlararası əlaqələrin fəallaşması xalqların yaxınlaşmasına, təcrübə mübadiləsinin aparılmasına və əməkdaşlığın mədəni-humanitar gündəliyinin möhkəmləndirilməsinə kömək edir.

Ölkələrimiz arasında dostluğun rəmzi ifadəsi mədəni əhəmiyyəti olan obyektlərdir: Daşkənddə Heydər Əliyev meydanı var və bu ilin iyulunda Bakıda "Özbəkistan" parkının təməli qoyulub.

Fürsətdən istifadə edərək həmçinin Azərbaycan xalqının Ümummilli Lideri, özbək xalqına həmişə böyük sevgi hissləri bəsləyən Heydər Əliyevin xatirəsinə göstərilən ehtiram və həqiqətən qardaşlıq münasibətinə görə Özbəkistan rəhbərliyinə, bütün qardaş xalqa minnətdarlığımı bildirmək istəyirəm.

Həmçinin idman sahəsində əməkdaşlıqda yaxşı nəticələr var. İki ölkənin birgə səyləri sayəsində FIFA İcraiyyə Komitəsi 2027-ci ildə keçiriləcək futbol üzrə U-20 Dünya çempionatının final mərhələsini Azərbaycanda və Özbəkistanda təşkil etmək qərarına gəlib. Bu, Avropa ilə Asiyanı birləşdirəcək ortaq tarixi nailiyyətdir.

Media və qeyri-hökumət təşkilatları sahələrində əməkdaşlıq da məhsuldar inkişaf edir. 2024-cü il sentyabrın 23-dən 25-dək Daşkənddə Birinci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda İkinci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. Bundan əlavə, 2024-cü ilin dekabr ayında Daşkənddə ilk dəfə Özbəkistan-Azərbaycan Qeyri-Hökumət Təşkilatları Forumu təşkil olunub.

Bütün bu tədbirlər və həyata keçirilən layihələr Azərbaycan ilə Özbəkistanın mədəni, humanitar sahələrdə güclü qardaşlıq münasibətlərini əyani şəkildə nümayiş etdirir, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə, mənəvi və mədəni qarşılıqlı əlaqələrin daha da inkişafına xidmət göstərir.

**- Cənab Prezident, sıx iş cədvəlinizdə bu məzmunlu müsahibəyə vaxt ayırdığınıza görə Sizə minnətdarıq.**

- Özbəkistan cəmiyyətinin həm Azərbaycan-Özbəkistan gündəliyində, həm də bütövlükdə regionda baş verən proseslərə artan marağını qeyd etməkdən çox məmnunam. Qoy əsrlər boyu qardaş xalqlarımızı və ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələri daha da möhkəmlənsin.

*AZƏRTAC*

# Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri bir ailə kimi dinc və sülh şəraitində yaşayırlar

## Prezident İlham Əliyev ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə "On İki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar, Yetmişlər Komitəsinin üzvü və Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi Cek Gerard, Stirlinq Fondunun prezidenti və İdarə Heyətinin sədri Mayls Hansen və Yetmişlər Komitəsinin Mərkəzi Avropa və Avrasiya üzrə kvorumunun üzvü Pol Pikard daxildir. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qonaqlar ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyərək onların regionun inkişafı üçün mühüm rol oynadığını vurğuladı. Donald Trampın yenidən Prezident seçilməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin yeni mərhələyə keçdiyini bildirən Prezident İlham Əliyev bu ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı mühüm sənədlərin imzalandığını xatırladı.

Qonaqlar Azərbaycan hökumətinin Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsini rəsmi qeydiyyata almasına görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirərək, bu kilsənin Bakı ofisinin açılışında iştirak edəcəklərini dedilər və bunu ölkəmizdə bütün dinlərin nümayəndələrinə göstərilən qayğının təcəssümü kimi qiymətləndirdilər.

Görüşdə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərdən söhbət açıldı, bu istiqamətdə ölkəmizdə bir çox mühüm beynəlxalq tədbirin təşkil edildiyi vurğulandı.

Tolerantlığın xalqımızın həyat tərzi olduğu bildirildi, tarixən ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi dinc və sülh şəraitində yaşadıqları qeyd edildi.

# Azərbaycanın və Gürcüstanın ədliyyə nazirləri əməkdaşlığın yeni istiqamətlərini müzakirə ediblər

Ədliyyə naziri Fərid Əhmədov gürcüstanlı həmkarı Paata Salia ilə görüş keçirib. Nazir qonağı Azərbaycanda salamlamaqdan məmnunluğunu ifadə edib və vurğulayıb ki, ölkələrimiz arasında qarşılıqlı etimada əsaslanan əlaqələr təkcə ikitərəfli səviyyədə deyil, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir. F.Əhmədov qeyd edib ki, cari ildə Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin, eləcə də Baş nazir İrakli Kobaxidzenin vəzifəyə başladıqdan sonra ilk rəsmi səfərlərini məhz Azərbaycana etmələri iki ölkə arasında münasibətlərin səmimi xarakterini və qarşılıqlı hörmətə əsaslandığını bir daha nümayiş etdirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyinin Mətbuat xidməti məlumat yayıb.



Bildirilib ki, görüşdə icra, xüsusi icra və probasiya sahələrinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi, bu istiqamətdə Gürcüstanla səmərəli təcrübə mübadiləsinin aparılması, həmçinin 2022-ci ildə Batumidə keçirilən Hüquq Forumu və imzalanmış Əməkdaşlıq Memorandumunun əlaqələrin inkişafına verdiyi töhfə müzakirə olunub. Tərəflər gələcəkdə də birgə tədbirlərin keçirilməsi və əməkdaşlığın yeni istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

Görüşdə ədliyyə sahəsində rəqəmsallaşmanın hər iki ölkə üçün prioritet olduğu qeyd edilib. Bildirilib ki, ölkəmizdə icra proseslərinin rəqəmsallaşdırılması istiqamətində atılan innovativ addımlar - "Elektron hərrac" platforması, "Mobil icra" tətbiqi, eləcə də sənədlərə və qanunvericilik bazasına çıxışı təmin edən "E-qanun.ai" süni intellekt dəstəkli hüquqi axtarış platforması uğurla fəaliyyət göstərir.

Sonda vurğulanıb ki, bu səfər və keçirilən görüşlər təcrübə və fikir mübadiləsinə, eləcə də Azərbaycan və Gürcüstan arasında hüquqi əməkdaşlığın daha da möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək.

# *"Daily Sabah":* Azərbaycan, Türkiyə və Pakistan - biri-birini tamamlayan strateji tərəfdaşlar

"Dünya "güc siyasətinə" qayıtdıqdan sonra Türkiyə, Azərbaycan və Pakistan yeni regional əməkdaşlıq oxu formalaşdırıblar. Bu alyansın əsas prinsipi "Üç dövlət, bir millət" ideyasıdır. Əsas məqsədləri isə xarici təhlükələri dəf etmək, suverenliyi qorumaq və qlobal qeyri-müəyyənlik şəraitində yeni güc mərkəzi yaradaraq xarici təhdidlərə qarşı möhkəm dayanmaqdan ibarətdir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyənin ingilisdilli "Daily Sabah" qəzetində siyasi şərhçi Muhittin Atamanın məqaləsində yer alıb. Müəllif qeyd edir ki, dünyada cərəyan edən qeyri-müəyyən geosiyasi proseslər orta və kiçik dövlətləri fəallaşmağa məcbur edib. Onlar təhlükəsizliyin təmin olunması məqsədilə təşəbbüslər irəli sürür, regional birliklər yaradırlar ki, xaricdən gələ biləcək təhlükələrin qarşısını ala bilsinlər.

Onun fikrincə, müasir dövrdə nə ABŞ kimi hegemon dövlətlər, nə də BMT kimi beynəlxalq təşkilatlar regional və qlobal problemlərin həllini tapa bilirlər. Buna görə də, dövlətləri birləşdirə biləcək ümumi dəyərlər əsasında yeni platformaların yaradılması faydalı əməkdaşlığın əsasını qoyur.

Azərbaycan, Türkiyə və Pakistanı birləşdirən dəyərlər kifayət qədərdir. Adətən dövlətlər iqtisadi maraqlar ətrafında birləşərək qarşılıqlı faydalı əməkdaşlıq qururlar. Lakin son illərdə təhlükəsizlik təhdidlərinin artması siyasi ittifaqların yaranmasına səbəb olub. Bu ittifaqlar böyük dövlətlərin asılılığından xilas olaraq müstəqil inkişaf yolunu müəyyən etməyə çalışırlar. Məqalədə vurğulanır ki, Azərbaycan, Türkiyə və Pakistan təhlükəsizliyin təmin olunması üçün yeni regional birlik yaradıblar. Ümumi dəyərlər ətrafında birləşən bu dövlətlərin əməkdaşlığı İkinci Qarabağ müharibəsindən sonra daha da dərinləşərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan, Türkiyə və Pakistan biri-birini tamamlayan dövlətlərdir. Azərbaycanın neft və qaz potensialı, Türkiyənin inkişaf etmiş hərbi sənayesi, Pakistanın isə nüvə silahına malik yeganə müsəlman dövləti olması bu əməkdaşlığı gücləndirən əsas amillərdəndir.

Müəllifin sözlərinə görə, üç dövlət təkcə təhlükəsizlik sahəsində deyil, həm də ticarət, enerji, nəqliyyat, elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığı genişləndirməlidir. Misal üçün, Türkiyə və Azərbaycan Pakistanı Türk Dövlətləri Birliyinə dəvət edə bilərlər.

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638,№ 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214,№ 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744) aşağıdakı məzmunda 106.1.13-2-ci, 199.7-1-ci və 207.3-1-ci maddələr əlavə edilsin:

"106.1.13-2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidentinin sənaye parkındakı həmin fəaliyyətdən əldə etdiyi mənfəət - 2025-ci il yanvarın 1-dən 6 il müddətinə;";

"199.7-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti həmin fəaliyyət prosesində istifadə etdiyi sənaye parkındakı əmlakına görə 2025-ci il yanvarın 1-dən 6 il müddətinə əmlak vergisini ödəməkdən azaddır.";

"207.3-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti həmin fəaliyyət prosesində istifadə etdiyi sənaye parkındakı torpaqlara görə 2025-ci il yanvarın 1-dən 6 il müddətinə torpaq vergisini ödəməkdən azaddır.".

**Maddə 2.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779 (Cild I); 2024, № 4, maddə 365, № 6 (I kitab), maddə 630, № 8, maddə 933, № 12 (II kitab), maddə 1349) 20.0.20-ci maddəsində "10" rəqəmləri "14" rəqəmləri ilə əvəz edilsin.

**Maddə 3.** Bu Qanunun1-ci maddəsi 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 277-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 277-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.13-2-ci (hər iki halda),199.7-1-ci (hər iki halda) və 207.3-1-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan RespublikasınınPrezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 106.1.13-2-ci (hər iki halda), 199.7-1-ci (hər iki halda) və207.3-1-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 106.1.13-2-ci, 199.7-1-ci və 207.3-1-ci maddələrində"sənaye parkı" dedikdə Qaradağ Sənaye Parkı, "sənaye parkının rezidenti" dedikdə isə gəmiqayırma fəaliyyəti ilə məşğul olan Qaradağ Sənaye Parkının rezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 277-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1.1.1-ci bəndə "106.1.13-cü,"sözlərindən sonra "106.1.13-2-ci (hər iki halda),"sözləri, "199.7-ci," sözlərindən sonra "199.7-1-ci (hər iki halda)," sözləri, "207.3-cü,"sözlərindən sonra "207.3-1-ci (hər iki halda)," sözləri əlavə edilsin və həmin bənddən "165.1.7-ci (hər iki halda)," sözləri çıxarılsın;

3.2.1.2-ci bəndə "106.1.13-cü," sözlərindən sonra "106.1.13-2-ci (hər iki halda),"sözləri, "199.7-ci," sözlərindən sonra "199.7-1-ci (hər iki halda)," sözləri və "207.3-cü,"sözlərindən sonra "207.3-1-ci (hər iki halda)," sözləri əlavə edilsin;

3.3.1.48-ci bənddə "164.1.28-ci və 165.1.7-ci" sözləri "106.1.13-2-ci, 164.1.28-ci, 199.7-1-ci və 207.3-1-ci" sözləri ilə əvəz edilsin.

4. Bu Fərmanın 1-ci və 3-cü hissələri 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2025-ci il*

# Azərbaycanın xarici işlər naziri Pakistanın federal ombudsmanı ilə görüşüb

Noyabrın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Asiya Ombudsmanlar Assosiasiyasının prezidenti, Pakistanın federal ombudsmanı Ecaz Əhməd Qureşinlə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-Pakistan münasibətlərinin dostluq və qardaşlıq prinsipləri əsasında dinamik inkişafından məmnunluq ifadə edilib, dövlətlərarası strateji tərəfdaşlığın təşəkkülündə iki ölkənin liderləri arasında yüksəksəviyyəli təmasların müstəsna rolu vurğulanıb.

Son bir il ərzində ikitərəfli və çoxtərəfli formatlarda baş tutan çoxsaylı ali və yüksəksəviyyəli təmaslar, xüsusilə də Azərbaycan, Pakistan və Türkiyə liderlərinin cari ilin mayında Laçın şəhərində keçirilmiş üçtərəfli görüşü, eləcə də Pakistan Baş nazirinin 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş Hərbi paradda iştirakı məmnunluqla xatırlanıb.

Azərbaycan ilə Pakistan arasında iqtisadi əməkdaşlıq və qarşılıqlı investisiyaların artan dinamikası qeyd olunub, bunun digər sahələrdə əlaqələrin inkişafına müsbət təsir göstərdiyi diqqətə çatdırılıb.

İki ölkənin ombudsman aparatları arasında əməkdaşlığın öz növbəsində ikitərəfli münasibətlərimizin dərinləşdirilməsi və genişləndirilməsinə əlavə dəyər qatdığı bildirilib.

Beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində iki ölkənin qarşılıqlı dəstəyə əsaslanan koordinasiyalı fəaliyyəti yüksək qiymətləndirilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident Administrasiyasının rəhbəri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsini ictimaiyyətə təqdim edib







Noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Ceyhun Ramiz oğlu Cəlilovu muxtar respublikanın ictimaiyyətinə təqdim edib.

AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Təqdimat mərasimində çıxış edən Samir Nuriyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial, iqtisadi və mədəni inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayır.

Ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini qeyd edən Prezident Administrasiyasının rəhbəri "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul edildiyini, davamlı iqtisadi və sosial artıma nail olmaqla muxtar respublikanın inkişafının sürətləndirilməsinin və ölkə iqtisadiyyatına tam inteqrasiyasının əsas hədəf olduğunu qeyd edib.

Bildirilib ki, Dövlət Proqramının həyata keçirilməsinə dair tədbirlər planına uyğun olaraq əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatının, turizmin, infrastruktur təminatının, sosial sferanın, insan kapitalının və digər sahələrin inkişafı ilə bağlı qarşıda duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün mövcud imkanlardan daha səmərəli istifadə olunmalı və bütün qüvvələr səfərbər edilməlidir.

Azərbaycan Prezidentinin noyabrın 12-də yeni təyinatlarla əlaqədar qəbulda səsləndirdiyi fikirlərə toxunan Prezident Administrasiyasının rəhbəri dövlətimizin başçısının xalqa xidməti, təvazökarlığı, vəzifə borcuna məsuliyyətli yanaşmanı əsas iş prinsipləri hesab etdiyini və hər bir məmurun öz fəaliyyətində bu prinsipləri rəhbər tutmalı olduğunu deyib.

Samir Nuriyev Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrini muxtar respublikanın yeni rəhbərliyinə çatdıraraq dövlətimizin başçısının göstərdiyi etimadın doğruldulacağına ümid etdiyini bildirib.

Ceyhun Cəlilov yüksək etimada görə dövlətimizin başçısına dərin təşəkkürünü bildirib və göstərilmiş etimadı doğruldacağını qeyd edib.

## Göyçay Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim olunub



Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Orxan Çingiz oğlu Mürsəlov noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda çıxış edən Zeynal Nağdəliyev dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

O.Mürsəlov ona göstərilən etimada görə minnətdarlıq edib.



## Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim olunub

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elşən Nazim oğlu Həsənli noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

E.Həsənli ona göstərilən etimada görə minnətdarlıq edib.

## Ağdərənin Vəngli, Xocalının Badara və Daşbulaq kəndlərinə növbəti köç



İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Noyabrın 13-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Ağdərənin Vəngli, Xocalının Badara və Daşbulaq kəndlərinə yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Ağdərənin Vəngli kəndinə 11 ailə - 45 nəfər, Xocalının Daşbulaq kəndinə 9 ailə - 31 nəfər, Badara kəndinə isə 6 ailə - 19 nəfər köçürülüb. Köçürülmə prosesi Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində əlaqədar dövlət qurumlarının birgə fəaliyyəti ilə həyata keçirilir.

## Qax Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim olunub



Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Qax Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elvin Nazim oğlu Paşayev noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Zeynal Nağdəliyev təqdimatda çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

E.Paşayev ona göstərilən etimada görə minnətdarlıq edib.



# Elm və təhsil xərcləri artırılır



**Noyabrın 13-də keçirilmiş Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin müavini Musa Qasımlı növbəti ilin büdcə layihəsinin müzakirəsinin Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərimizdə böyük quruculuq işlərinin həyata keçirildiyi, keçmiş məcburi köçkünlərin öz yurdlarında müasir yaşayış məntəqələrinə qaytarıldığı, azad edilmiş ərazilərdə mədəniyyətin, elmin, təhsilin yenidən bərpa edildiyi bir şəraitdə keçirildiyini və bütün bunların ölkəmizin 2025-ci ildə uğurlu yol keçdiyinin göstəricisi olduğunu vurğulayıb.

Vitse-spiker bildirib ki, büdcə layihəsində vergi gəlirlərinin və qeyri-neft sektoru üzrə gəlirlərin payının artması neftdən asılılığın getdikcə azalmasına, kənd təsərrüfatının, turizmin, sahibkarlığın inkişafına, yeni texnologiyaların tətbiqinə müsbət təsir göstərəcək.

Musa Qasımlı büdcə layihəsində təhsilə ayrılan xərclərin artırılmasının ölkəmizdə təhsil sisteminin daha da təkmilləşdirilməsinə, müasir səviyyədə qurulmasına, bu sahədə davamlı islahatların həyata keçirilməsinə xidmət edəcəyini söyləyib. O nəzərə çatdırıb ki, layihədə Prezident İlham Əliyevin təhsilin hamı üçün əlçatan olmasına yönəlmiş siyasəti öz əksini tapıb. Belə ki, gələn il dövlət sifarişi və dövlət hesabına təhsil alanların sayının 1 milyon 150 min 102 nəfərə, təqaüd alanların sayının 121 min 280 nəfərə çatdırılması bu sahəyə olan dövlət qayğısının daha bir nümunəsidir. Vitse-spiker dövlət sifarişi və dövlət hesabına kadr hazırlığının maliyyələşdirilməsi üçün növbəti ilə proqnozlaşdırılan vəsaitin 41 milyon 800 milyon manatının 18 min 500 nəfərə ayrılmasını vətəndaşlara olan dövlət qayğısı kimi səciyyələndirib.

İclasda maliyyə nazirinin müavini Himalay Məmişov çıxış edərək diqqətə çatdırıb ki, 2026-cı ilin dövlət büdcəsinin xərcləri 41,7 milyard manat həcmində proqnozlaşdırılıb. Bu, cari illə müqayisədə 296 milyon manat və ya 0,7 faiz, ötən illə müqayisədə isə 4 milyard manat və ya 10,6 faiz çoxdur.

Bildirilib ki, 2026-cı il üçün təhsil və elm xərclərinə 5,2 milyard manat vəsait nəzərdə tutulur. Bu, cari illə müqayisədə 68,4 milyon manat və ya 1,3 faiz, ötən illə müqayisədə 658 milyon manat və ya 14,3 faiz çoxdur. Ortamüddətli dövrdə təhsil və elmə ayrılan vəsait mütləq ifadədə 1,4 milyard manat və ya 35,2 faiz artıb. Növbəti ildə ümumi və məktəbəqədər təhsil xərclərinə 2,9 milyard manat, dövlət sifarişi də daxil olmaqla, ali təhsilin maliyyələşdirilməsinə 828,5 milyon manat, peşə və orta ixtisas təhsilinə 199,7 milyon manat, təhsil sahəsi üzrə məqsədli proqramlar və tədbirlərin, habelə təhsil sahəsində tətbiqi tədqiqat xərclərinə 1,1 milyard manat vəsait nəzərdə tutulur.

Qeyd olunub ki, 2026-cı ildə ailə, qadın və uşaq məsələləri üzrə xərclərin qarşılanması üçün 11,3 milyon manat məbləğində vəsait nəzərdə tutulur.

İclasda diqqətə çatdırılıb ki, 2026-cı ilin dövlət büdcəsində kənd təsərrüfatı xərclərinə 1,2 milyard manat məbləğində vəsait proqnozlaşdırılıb.

Nazir müavini dövlət büdcəsi xərclərinin maliyyə təminatı barədə də məlumat verib. Gələn il üçün dövlət büdcəsi xərclərinin 92,6 faizi və ya 38,6 milyard manatının büdcənin gəlirləri, 7,4 faizi və ya 3,1 milyard manatının isə onun kəsirinin maliyyələşdirilməsi üçün cəlb ediləcək vəsaitlər hesabına təmin olunacağını söyləyib.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2026-cı ilin dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini təqdim edib. O bildirib ki, rəy 2026-cı il üçün dövlət büdcəsinə dair qanun layihəsinin və layihə ilə birlikdə təqdim olunan sənədlərin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlir və xərcləri, habelə büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə kənar dövlət maliyyəyə nəzarət orqanının mövqeyini ifadə edir. Qeyd olunub ki, dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsi, beynəlxalq təcrübəyə uyğunluğunun təmin olunması dövlət büdcəsinin gəlir və xərclərinin düzgün uçotunun aparılması istiqamətində Hesablama Palatasının əvvəlki rəylərində göstərilmiş əksər məsələlər büdcə zərfində nəzərə alınıb. Palata tərəfindən aparılan təhlillərə əsasən, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi "Büdcə sistemi haqqında" qanunun müəyyən etdiyi tələblərə uyğun tərtib olunub.

Tədbirdə çıxış edən iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli vurğulayıb ki, qeyri-neft-qaz sektorunun şaxələndirilməsi, biznes mühitinin təkmilləşdirilməsi, fiskal idarəetmənin optimallaşdırılması və digər tədbirlər nəticəsində ölkə iqtisadiyyatı yeni keyfiyyət mərhələsinə qədəm qoyub.

Nazir müavini son 10 ildə elmin inkişafına ayrılan dövlət vəsaitinin iki dəfə artdığını, 2026-cı ilin büdcəsində təhsil xərcləri üçün 5 milyard manatdan artıq vəsaitin nəzərdə tutulduğunu deyib. O, ərzaq təhlükəsizliyinin təmin edilməsinin, bu sahədə idxalı əvəz edən və ixracyönümlü məhsul istehsalının artırılmasının da əsas prioritetlərdən olduğunu, 2025-ci ilin 9 ayında qeyri-neft-qaz ixracının 29 faizinin ilkin kənd təsərrüfatı məhsulları, 11 faizini kənd təsərrüfatı emalı məhsullarının təşkil etdiyini, 2026-cı il dövlət büdcəsi zərfi üzrə kənd təsərrüfatı xərclərinin 1,2 milyard manat proqnozlaşdırıldığını söyləyib.

Sonra kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxış edərək bildirib ki, 2026-cı ilin dövlət büdcəsində kənd təsərrüfatı tədbirlərinin həyata keçirilməsi üçün 547,8 milyon manat vəsait nəzərdə tutulub. Bu vəsaitdən 483,2 milyon manatı Aqrar Kredit və İnkişaf Agentliyinin, 55,5 milyon manatı Aqrar Xidmətlər Agentliyinin fəaliyyət istiqamətləri ilə bağlı tədbirlərə, 9,1 milyon manatı isə nazirlik tərəfindən həyata keçirilən tədbirlərə sərf olunacaq. Diqqətə çatdırılıb ki, 2026-cı ilin dövlət büdcəsində Balıqçılıq və Akvakultura Mərkəzi və tabeliyindəki qurumların fəaliyyətinin təmin edilməsi üçün ilk dəfə olaraq 4,4 milyon manat nəzərdə tutulub. Məcnun Məmmədov aqrar sahədə son illər tətbiq olunan yeni subsidiya mexanizmlərindən də söz açıb. Bildirilib ki, 2026-cı ildə əkin subsidiyasının ödənilməsi ilə bağlı 290 milyon manat proqnozlaşdırılıb ki, bu da cari ilin büdcə göstəriciləri ilə müqayisədə 2 faiz az, 2024-cü ilin faktiki xərcləri ilə müqayisədə isə 5,8 faiz çoxdur. Gələn ildə məhsul subsidiyasının ödənilməsi üçün 66 milyon manat vəsait proqnozlaşdırılıb.

Nazir həmçinin heyvandarlığın inkişafı istiqamətində təşəbbüslərin dəstəklənməsi tədbirlərindən söz açıb.

Sonra elm və təhsil naziri Emin Əmrullayev 2026-cı ilin dövlət büdcəsində elm və təhsil sahələrinə ayrılan vəsaitlər, həyata keçirilən islahatlar, görülən işlər və qarşıdakı hədəflər barədə məlumat verib. Nazir bildirib ki, 2026-cı ilin dövlət büdcəsində təhsil bölməsi üzrə 5 milyard 15 milyon manat vəsait proqnozlaşdırılıb. Bu, ötən illə müqayisədə 48,5 milyon manat çox deməkdir. Son beş il ərzində təhsil sektoruna ayrılan dövlət vəsaiti 1,6 dəfə artıb. Artımlar əsasən müəllim və təhsil işçilərinin sosial rifahının yüksəldilməsinə, əməkhaqqı xərclərinin maliyyələşdirilməsinə yönəldilib. Vurğulanıb ki, təhsilə ayrılan vəsaitin ilbəil artım dinamikası dövlət başçısının təhsilin inkişafına göstərdiyi xüsusi diqqət və qayğısının, eləcə də dövlət siyasətində insan kapitalının formalaşdırılmasının prioritet istiqamət kimi müəyyən edilməsinin məntiqi nəticəsidir. Elm köməkçi bölməsi üzrə 2026-cı ildə 229 milyon manat vəsait nəzərdə tutulur. Vəsaitin 87,9 milyon manatı Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisə və təşkilatlara yönəldiləcək ki, onun da 78,1 faizini əməyin ödənişi xərcləri təşkil edir.

Nazir bildirib ki, 2026-cı ilin dövlət büdcəsi layihəsində məktəbəqədər təhsil üçün 468,2 milyon manat vəsait ayrılması nəzərdə tutulub. Bundan başqa, alternativ maliyyələşmə modelləri əsasında məktəbəqədər təhsilə cəlb olunan uşaqların sayının 30 min nəfərə çatdırılması planlaşdırılır. Bu məqsədlə dövlət büdcəsində əvvəlki illə müqayisədə 8 milyon manat çox olmaqla 27,2 milyon manat vəsait nəzərdə tutulub. 2026-cı ilin büdcə layihəsində məktəbəhazırlıq qruplarının açılması və fəaliyyəti üzrə 37,3 milyon manat vəsait, ümumi təhsil üzrə 2,4 milyard manat vəsait nəzərdə tutulub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova çıxışında ölkədə ailə və gender siyasətindən, eləcə məişət zorakılığı ilə mübarizə və boşanmalardan sonra yaranan sosial problemlərin azaldılması istiqamətində görülən işlərdən danışıb. O, qadın və uşaq hüquqlarının, ailə dəyərlərinin qorunmasının vacibliyini, yerli idarəetmə orqanlarının ailə və sosial rifah məsələlərində rolunun artırılmasının önəmini diqqətə çəkib.

İclasda çıxış edən parlamentin komitə sədrləri 2026-cı ilin dövlət büdcəsinin əsas göstəricilərini yüksək qiymətləndiriblər, müxtəlif məsələlər barədə fikirlərini bölüşüblər, bir sıra qeyd və təkliflərini səsləndiriblər.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev aqrar sektorun inkişafının ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, işsizliyin azaldılmasına və kənd əhalisinin rifahının yüksəldilməsinə mühüm töhfə verdiyini bildirib. O qeyd edib ki, bu sahədə tətbiq olunan vergi güzəştləri, ayrılan subsidiyalar və dövlət maliyyə dəstəyi uğurlu nəticələr verir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova növbəti ilin dövlət büdcəsi layihəsinin sosialyönümlü olduğunu deyib və bu baxımdan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Komitə sədri ölkəmizdə qadın sahibkarlığının inkişafına yüksək dəstək verildiyini qeyd edərək gələcəkdə həmin istiqamətdə büdcədən ayrılan vəsaitin artırılmasının bu sahənin daha da genişlənməsinə xidmət edəcəyini söyləyib.

Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov bildirib ki, gələn il təhsil xərcləri ümumi büdcə xərclərinin 12 faizini təşkil edəcək. O vurğulayıb ki, sertifikasiya proqramında uğur qazanmış pedaqoqların diferensial əməkhaqqı sisteminə cəlb olunması məqsədilə 2026-cı il büdcə layihəsində 232 milyon manat vəsait nəzərdə tutulub.

Müzakirələrdə Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, Aqrar siyasət komitəsi sədrinin müavini Razi Nurullayev, deputatlar Aydın Hüseynov, Mehriban Vəliyeva, Elnarə Akimova, Vasif Qafarov, Ceyhun Məmmədov, Şahin Seyidzadə və Elçin Mirzəbəyli çıxış edib fikirlərini və təkliflərini bildiriblər.

Elm və təhsil naziri Emin Əmrullayev, kənd təsərrüfatı naziri Məcnun Məmmədov, iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli və maliyyə nazirinin müavini Himalay Məmişov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər, sualları cavablandırıblar.

İclasda gündəlikdəki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# COP30-da Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin İllik Yüksəksəviyyəli Dialoqu keçirilib

Braziliyanın Belem şəhərində keçirilən COP30 çərçivəsində "Yaşıl İqlim" Fondu (GCF) və Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) birgə təşkilatçılığı ilə COP29-un aparıcı təşəbbüsü olan Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin (Bakı Mərkəzi) İllik Yüksəksəviyyəli Dialoqu keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) üzv ölkələrin nazirləri, yüksəksəviyyəli hökumət nümayəndələri, BMT qurumları və beynəlxalq maliyyə institutlarının təmsilçiləri iştirak ediblər. Görüşün əsas məqsədi iqlim dəyişiklikləri və sülh əlaqəsi üzrə qlobal gündəliyin daha da irəlilədilməsindən ibarət olub.

## "Sülh, Yardım və Bərpa naminə İqlim Fəaliyyəti üzrə Bakı Çağırışı"

Tədbirin açılışında çıxış edən COP29 Sədri Muxtar Babayev qeyd edib ki, COP29 zamanı təsis edilmiş Bakı Mərkəzi, iqlim fəaliyyəti ilə sülh və sabitlik arasında yeni əməkdaşlıq mərhələsinin əsasını qoyub. Mərkəzin təqdimatı ilə çıxış edən xarici işlər nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov bildirib ki, Bakı Mərkəzi artıq iqlim və münaqişələrdən əziyyət çəkən ölkələrdə innovativ modellərə əsaslanan pilot layihələrin icrasına başlayır. Natiq bu vəzifənin COP29 təşəbbüsü olan Bakı Mərkəzinə həvalə edilməsini beynəlxalq tərəfdaşların ölkəmizin etibarlı xarici siyasəti və iqlim diplomatiyasına inamının nümunəsi kimi dəyərləndirib.

Tədbirdə çıxış edən "Yaşıl İqlim" Fondunun İcraçı direktoru xanım Mafalda Duarte Bakı Mərkəzinə tam dəstəyini ifadə edib və sözügedən təşəbbüsün iqlim maliyyəsini sülh və dayanıqlılıq nəticələri ilə birləşdirmək, həssas ölkələrə yardımın artırılması sahəsində vacib beynəlxalq mexanizmə çevrildiyini vurğulayıb.

Bu xüsusda çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Mərkəzin ölkəmizin digər vacib təşəbbüsü olan "Bakıdan Belemə Yol Xəritəsi"nin icrasında əhəmiyyətli rol oynayacağına ümid etdiyini bildirib.

Tədbirdə ilk pilot layihələr üzrə birgə işçi qruplarının yaradılmasına dair Bakı Mərkəzi ilə Qvineya-Bisau Ətraf Mühit, Biomüxtəliflik və İqlim Fəaliyyəti Nazirliyi, eləcə də Qambiya Ətraf Mühit, İqlim və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma memorandumları imzalanıb.

İmzalanma mərasimindən əvvəl çıxış edən Qambiya və Ficinin iqlim nazirləri, Qvineya-Bissau, İraq və Malavinin yüksəksəviyyəli hökumət nümayəndələri, Bakı Mərkəzinin qısa müddətdə qlobal müstəvidə vacib əməkdaşlıq platformasına çevrildiyini vurğulayaraq, Azərbaycan dövlətinə və COP29 sədrliyinə beynəlxalq sülhün irəlilədilməsi sahəsindəki liderliyə, həmçinin həssas ölkələrə göstərdiyi davamlı dəstəyə görə təşəkkürlərini bildiriblər.

Tədbirin sonunda Bakı Mərkəzinin Yüksəksəviyyəli Dialoqunun Belem Kommünikesi qəbul edilib.

# Azərbaycan COP29 irsini davam etdirir

## Bu dəfə Braziliyada keçirilən COP30-da

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası (COP30) Braziliyanın Belem şəhərində bir çox ölkənin dövlət və hökumət başçılarını, nazirlər və beynəlxalq təşkilatların rəhbərlərini iqlim dəyişikliyi ilə bağlı aktual problemləri və öhdəlikləri müzakirə etmək üçün bir araya gətirib.

Artıq noyabrın 6-dan start götürən tədbirə Azərbaycan öz pavilyonu ilə qoşulub. Pavilyon ölkəmizin iqlim fəaliyyəti üzrə davamlı liderliyini, eləcə də estafeti uğurla Braziliyaya təhvil verməzdən öncə COP29-a sədrliyi dövründə əldə olunan nailiyyətləri nümayiş etdirir.

Əvvəla xatırladaq ki, Milli Məclisin Sədri Sahibə Qafarova COP30-un Liderlər Sammitində çıxış edərək Azərbaycanın təşkilatçılığı ilə COP29-da əldə olunan mühüm nailiyyətlər barədə məlumat verib. Bir daha xatırladılıb ki, ölkəmiz böyük maneələrə, qeyri-müəyyənliklərə baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə ən uğurlu COP-lardan birinə evsahibliyi etdi, bu prosesi qətiyyətlə həyata keçirdi. Biz həmin möhtəşəm tədbirdə tərəflər arasında fikir ayrılıqlarını aradan qaldırmağı və əvvəlki danışıqlarda həll oluna bilməyən məsələlər üzrə tarixi konsensus əldə etməyi bacardıq.

Azərbaycan COP29-da Bakı Maliyyə Hədəfinin qəbul edilməsinə də nail oldu ki, bu da 2025-ci ildən başlayaraq, hər il inkişaf etməkdə olan ölkələr üçün 300 milyard dolların səfərbər edilməsini nəzərdə tutur. Bu, Birləşmiş Millətlər Təşkilatı tərəfindən indiyə qədər əldə edilmiş ən böyük maliyyə paketidir.

Bakı böyük uğurla yekunlaşan COP29-dan sonra estafeti Belemə - COP30-a verib. COP29-un missiyasını simvolizə etmək üçün ölkəmiz COP30-dakı pavilyonunu "Həmrəylik evi" adlandırıb. Pavilyonumuzun "İrs zalı" guşəsində həm qlobal COP29 irsi, həm də Azərbaycanın uzunmüddətli mədəni-ekoloji ənənələri sərgilənir. Burada şəffaflıq, su ehtiyatlarının iqlim dəyişmələrinə davamlılığı, sülh quruculuğu və insan inkişafını ehtiva edən səkkiz əsas təşəbbüs interaktiv formatda nümayiş olunur.

Pavilyonun mərkəzində Azərbaycanın aparıcı milli layihələri - "Qarabağ Yaşıl Enerji Zonası", "Bakı Yaşıl Nəqliyyat Mərkəzi", vüsət alan bərpaolunan enerji portfeli və "Avropa İttifaqı-Asiya Yaşıl Enerji Dəhlizi" layihəsi təqdim edilir. Bu təşəbbüslər Azərbaycanın gələcəkdə qitələri birləşdirən təmiz enerji mərkəzinə çevrilməsində oynadığı strateji rolu göstərir.

COP30 əsas diqqəti təbiətə yönəltdiyindən Azərbaycan pavilyonu da dünyanın ən unikal qapalı su hövzələrindən biri - Xəzər dənizini və qədim Hirkan meşələrindən tutmuş Qafqaz dağlarının zirvələrinə kimi ölkəmizin bənzərsiz biomüxtəlifliyini təqdim edir.

Bir sözlə, pavilyonumuz həm ənənəni, həm də innovasiyanı bir araya gətirərək zəngin mədəni və təbii irsə malik bir ölkənin dayanıqlı gələcəyi necə formalaşdırdığı barədə geniş məlumat verir.

COP30 çərçivəsində həmçinin Yaşıl İqlim Fondu (GCF) və Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) birgə təşkilatçılığı ilə COP29-un aparıcı təşəbbüsü olan Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin (Bakı Mərkəzi) İllik Yüksəksəviyyəli Dialoqu keçirilib. Tədbirdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) üzv ölkələrin nazirləri, yüksək səviyyəli hökumət nümayəndələri, BMT qurumları və beynəlxalq maliyyə institutlarının təmsilçiləri iştirak ediblər. Görüşün əsas məqsədi iqlim dəyişiklikləri və sülh əlaqəsi üzrə qlobal gündəliyin daha da irəlilədilməsindən ibarət olub.

COP29-un Sədri Muxtar Babayev tədbirin açılışında COP29 zamanı təsis edilmiş Bakı Mərkəzinin iqlim fəaliyyəti ilə sülh və sabitlik arasında yeni əməkdaşlıq mərhələsinin əsasını qoyduğunu qeyd edib. Digər çıxışlarda bildirilib ki, Bakı Mərkəzi artıq iqlim və münaqişələrdən əziyyət çəkən ölkələrdə innovativ modellərə əsaslanan pilot layihələrin icrasına başlayır. Bu vəzifənin sözügedən mərkəzə həvalə edilməsi isə beynəlxalq tərəfdaşların ölkəmizin etibarlı xarici siyasəti və iqlim diplomatiyasına inamının nümunəsi kimi dəyərləndirilir. Eləcə də təşəbbüsün iqlim maliyyəsini sülh və dayanıqlılıq nəticələri ilə birləşdirmək, həssas ölkələrə yardımın artırılması sahəsində vacib beynəlxalq mexanizmə çevrildiyi vurğulanıb.

İlk pilot layihələr üzrə Birgə İşçi Qruplarının yaradılmasına dair Bakı Mərkəzi ilə Qvineya-Bisau Ətraf Mühit, Biomüxtəliflik və İqlim Fəaliyyəti Nazirliyi, eləcə də Qambiya Ətraf Mühit, İqlim və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumları imzalanıb. Tədbirin sonunda isə Bakı Mərkəzinin Yüksəksəviyyəli Dialoqunun Belem Kommunikesi qəbul edilib.

Azərbaycanın COP30-da fəal iştirakı göstərir ki, ölkəmizin COP29 irsi davam edir və daha "yaşıl dünya" naminə həmrəy olmaq üçün kollektiv iqlim fəaliyyətini stimullaşdırır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Azərbaycanın evsahibliyi ilə keçirilən COP29 qlobal iqlim gündəliyində dönüş nöqtəsi oldu"

"Azərbaycanın təşəbbüskarlığı və konstruktiv mövqeyi sayəsində COP29 iqlim dəyişmələri ilə mübarizə istiqamətində tarixi qərarların qəbul edildiyi, beynəlxalq ictimaiyyət tərəfindən dönüş nöqtəsi kimi qiymətləndirilən bir platforma idi".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyə politoloqu Hüsaməddin İnaç deyib.

Azərbaycanın uğurlu evsahibliyi ilə keçirilmiş COP29 ilə hazırda Braziliyada davam edən COP30-u müqayisə edən politoloq bildirib ki, Zərər və İtki Fondunun fəaliyyətə başlaması, iqlim maliyyələşməsi üçün mexanizmlərin yaradılması və iqlim ədaləti mövzusunda əldə olunmuş konsensus COP29-un qlobal miqyasda əhəmiyyətini bir daha göstərib. Bu qərarlar iqlim diplomatiyasında yeni mərhələnin əsasını qoyub.

Hüsaməddin İnaç əlavə edib ki, Azərbaycan son illərdə həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş və nüfuzlu aktora çevrilib.



"Azərbaycanın artan beynəlxalq nüfuzu, xüsusilə COP29-da nümayiş etdirdiyi liderlik bəzi regional və qlobal gücləri narahat edir. Bu qüvvələr Azərbaycanın əldə etdiyi uğurları kölgələmək və onun beynəlxalq arenadakı müsbət imicinə xələl gətirmək üçün müxtəlif cəhdlər göstərə bilərlər. Lakin Azərbaycanın praqmatik siyasəti və diplomatik fəallığı bu cəhdlərin qarşısını almağa qadirdir", - deyə Türkiyə politoloqu vurğulayıb.



# Təvazökar, ədalətli, prinsipial və xalqın içində olun

## Prezidentin yerli icra orqanlarının rəhbərlərindən tələbi budur

**Uzun illərin sınağından çıxmış belə bir deyim var: kadrlar hər şeyi həll edir. Bu, doğrudan da belədir. Kadr yerində olanda, işini peşəkarcasına görəndə həm öz vicdanı rahat, həm də xalqın yanında başıuca, alnıaçıq olur. Dövlətin müxtəlif strukturlarına rəhbərlik edən məmurlar işlərini peşəkarlıqla və dövrün tələbləri səviyyəsində qurarsa, eləcə də idarəçilikdə yeni təfəkkür, yüksək əxlaq və mənəvi keyfiyyət sərgiləyərsə, kimsənin yanında gözükölgəli olmaz.**

Tutduğu vəzifəyə hörmət edən, tabeliyində olanlara dəyər verən rəhbər şəxs dövlətə və dövlətçiliyə xidmət etməklə millətinin, xalqının xidmətçisi olur. Bunun əksi olanlarınsa "fironluğu" çox çəkmir. Nə xoş ki, birincilər, yəni Azərbaycana xidmət edən, xalqını sevən, millətinə yüksək dəyər verən rəhbər şəxslər var. Nə yazıq ki, bu xalq, bu ölkə ikincilərdən də xali deyil. Zaman-zaman onların bəd əməllərinin şahidi olmuşuq və təəssüf ki, bu gün də şahidik.

Prezident İlham Əliyev son vaxtlar ölkəni bu cür kadrlardan xilas etmək üçün olduqca səmərəli islahatlar keçirir. Bu islahatlar nəticəsində iqtisadi və siyasi idarəetmə yenilənir, cəmiyyət başqa bir vətəndaş-məmur mərhələsinə keçir. Dövlət başçısı yolunu azmış məmurları, idarəçilikdə özbaşınalıq edən vəzifəli şəxsləri tutduqları vəzifədən azad edərkən cəmiyyət onların ötürdükləri neqativ enerjidən təmizlənmiş olur. Dövlət başçısının kadr siyasəti və struktur dəyişikliyi özünün də dediyi kimi, iqtisadi müstəqilliyimizin təminidir. Çünki iqtisadi müstəqillik gücləndikcə milli iradə möhkəmlənir, kənar müdaxilələr aradan qalxır. Dövlət idarəçiliyində güclü kadrların olması, milli düşüncəli gənclərin vəzifələrə təyin olunması "insan kapitalı" prinsipinə xidmət edir. Bu cür kadrlar ölkənin sərvəti hesab olunurlar. Ona görə də düzgün aparılan kadr siyasəti ölkənin strateji ehtiyatlarının idarə edilməsində alternativsizlik sərgiləyir. Bu baxımdan, Prezidentin islahatlara yol açan fəaliyyəti novatorluq, çeviklik və şəffaflığın əhəmiyyətini artırır. "İslahatlara alternativ yoxdur", - deyən İlham Əliyevin bugünkü kadr siyasəti dövlət idarəçiliyində çox böyük rol oynayır.

Prezident noyabrın 12-də Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən bu fikri xüsusi vurğulayıb: "Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir".

Əslində, məqsəd yalnız qanunsuz halların qarşısını almaq deyil, eyni zamanda regionlarda sosial rifahı, o cümlədən məşğulluğu artırmaqdır. İslahatların davamı kimi, indi əsas diqqət regionlarda iş yerlərinin yaradılmasına yönəlib. Bunun üçün dövlət bölgələrdə məşğulluğun artırılması istiqamətində ardıcıl addımlar atır. Sosial-iqtisadi inkişaf proqramları çərçivəsində kəndlərdə və rayon mərkəzlərində yeni istehsal müəssisələri, aqroparklar və sənaye zonaları yaradılır. Hazırda ölkə üzrə 40-dan çox aqropark fəaliyyət göstərir ki, bu da minlərlə insanın daimi iş yeri ilə təmin olunmasına imkan yaradır.

Bu istiqamətdə dövlət başçısının mövqeyi tam aydındır - bölgələrdə məşğulluğun təmin olunması ümumi sosial-iqtisadi siyasətin əsas prioritetlərindəndir. Onu da vurğulayaq ki, məşğulluğun artırılması təkcə iqtisadi deyil, sosial baxımdan da mühüm əhəmiyyət kəsb edir. Yeni iş yerlərinin açılması əhalinin gəlir səviyyəsini yüksəldir, regionlarda sosial sabitliyin möhkəmlənməsinə və miqrasiya meyillərinin azalmasına şərait yaradır. Prezident İlham Əliyev sözügedən görüşdə həmin məqama da diqqət çəkib: "Bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyilləri mövcuddur. Bunun müxtəlif səbəbləri var. Miqrasiyanın, kəndlərdən şəhərlərə axının mövcud olması təkcə bizim ölkə üçün xas deyil, inkişaf etmiş ölkələrdə də bu var. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir. Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Təbii ki, onlara dəstək vermək lazımdır. Çünki yerli istehsalın inkişafı həm məşğulluq məsələlərini təmin edir, eyni zamanda yerli istehsalı da gücləndirir".

Qeyd edək ki, Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı bölgələrdə əhalinin gəlir mənbələrini artırmağa yönəlib. Təkcə son bir neçə ildə bu proqram çərçivəsində on minlərlə ailə kiçik təsərrüfat və ailə biznesi qurmaq imkanı əldə edib. Bundan başqa, gənclərin məşğulluğu, peşə hazırlığı mərkəzlərinin yaradılması, həmçinin mikro və kiçik sahibkarlığın inkişafı üçün güzəştli kreditlərin verilməsi kimi tədbirlər regionlarda iqtisadi fəallığı daha da canlandırır. Nəticədə yeni iş yerləri açılır, yerli istehsal və xidmət sahələri genişlənir. Bunları rəsmi statistikanın dili ilə belə ifadə etmək olar: 2025-ci ilin 6 ayı ərzində ölkədə 48,9 min yeni iş yeri açılıb ki, onun da 24,2 faizi regionların payına düşür.

Dövlət başçısının təbirincə desək, təbii ki, Azərbaycanın bölgələri müasir inkişafın ən yüksək standartlarına cavab verməlidir və artıq bu istiqamətdə mühüm nəticələr əldə olunub. Son illər ərzində həyata keçirilən genişmiqyaslı islahatlar və infrastruktur layihələri regionların sosial-iqtisadi simasını köklü şəkildə dəyişib. Bu dəyişiklikləri ölkənin istənilən bölgəsinə səfər edən hər bir Azərbaycan vətəndaşı görür və hiss edir, reallığın şahidi olur. Yeni və müasir görünüşə malik 9 beynəlxalq hava limanı, tamamilə yenidən qurulan dəmir yolları, magistral avtomobil xətləri, elektrik və qaz infrastrukturunun genişləndirilməsi, içməli su və suvarma layihələrinin icrası ölkənin bütün guşələrində inkişafın göstəricisidir. Bütün bunlar Azərbaycanın regional siyasətinin nə qədər məqsədyönlü və davamlı olduğunu bir daha təsdiqləyir.

İndi qalır həmin siyasəti davam etdirmək. Bu vəzifə isə əsasən yerli icra orqanlarının üzərinə düşür. O icra orqanlarının ki, Prezident onların üzərinə ciddi və məsuliyyətli vəzifələr qoyub və həmin vəzifələrin öhdəsindən gəlmək üçün yerli rəhbərlər ədalətli, prinsipial, təvazökar və xalqın içində olmalıdırlar və unutmamalıdırlar ki, bu, Prezidentin tələbidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Türkoloji Qurultayın tarixi missiyası, milli kimliyin dirçəldilməsi

Milli kimlik anlayışı xalqın tarixi inkişaf prosesində formalaşan və onun mənəvi-mədəni dəyərlərini, dilini, dünyagörüşünü özündə ehtiva edən mürəkkəb ictimai fenomen kimi çıxış edir. Milli kimliyin mahiyyətini müəyyən edən başlıca amillərdən biri dil, digəri isə tarixi yaddaş və özünüdərk prosesidir. Bu mənada milli kimlik təkcə mənsubiyyət hissi deyil, həm də xalqın öz taleyini dərk etmə, mənəvi sərhədlərini və birgə varlıq idealını müəyyənləşdirmə formasıdır.

XX əsrin əvvəllərində baş verən ictimai-siyasi dəyişikliklər türk xalqları arasında milli özünüdərkin intensivləşməsinə səbəb oldu. Məhz bu dövrdə ortaq dil, mədəni birlik və tarixi yaddaşın qorunması ideyası intellektual düşüncənin əsas istiqamətlərindən birinə çevrildi. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay bu baxımdan təkcə elmi hadisə deyil, həm də türk xalqlarının milli özünüdərk konsepsiyasının təməl mərhələlərindən biri kimi tarixə düşdü. Qurultayda səslənən ideyalar türk xalqlarının dil birliyinin, mədəni inteqrasiyasının və mənəvi həmrəyliyinin bərpasına yönəldi.

Bu baxımdan, ümummilli Lider Heydər Əliyevin milli kimlik, dil və türk dünyasının birliyi barədə baxışları qurultayda əsaslandırılmış ideyaların müasir dövrdə davamı kimi dəyərləndirilə bilər. Ulu Öndərin "Millətin milliliyini saxlayan onun dilidir" fikri milli kimliyin qorunmasının mahiyyətini ifadə etməklə yanaşı, dilin xalqın tarixi yaddaşında və ictimai şüurunda daşıdığı fundamental rolu elmi səviyyədə ümumiləşdirir. Heydər Əliyev üçün dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli varlığın, siyasi müstəqilliyin və mədəni bütövlüyün daşıyıcısı idi.

Bu ideoloji xəttin müasir mərhələdə davamı kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Dövlət başçısının Bakıda keçirilmiş I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam, təkcə tarixi hadisənin qeyd olunması deyil, həm də türk xalqlarının ortaq köklərinə, mənəvi birliyinə və milli yaddaşına verilən dərin dəyərin göstəricisidir.

Hər bir yubiley, kimə və ya hansı hadisəyə həsr olunmasından asılı olmayaraq, mahiyyət etibarilə yaddaşın təzələnməsi, oyanması ilə əlamətdardır. Lakin elə yubileylər var ki, xalqın, millətin və ümumən mənsub olduğu etnosun tarixi taleyi ilə fövqəladə dərəcədə bağlı olur. Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması haqqında Prezident İlham Əliyevin sərəncamı da məhz bu qəbildəndir. O, milli yaddaşın unudulmaz, qapanmaz və əbədi yaşayacaq səhifəsini bir əsrdən sonra yenidən açdı. Açdı ki, millətin övladları bu tarixi öyrənsin, yadda saxlasın və Azərbaycan xalqının, eləcə də bütün türk dünyasının gələcək yolunun hansı hədəfə doğru yönəldiyini heç vaxt unutmasın.

Müasir dünya siyasi səhnəsində Azərbaycanı uğurla təmsil edən, dünyanın aparıcı siyasi fiqurları tərəfindən önəmli siyasətçi kimi qəbul edilən, Azərbaycan və digər türk dövlətləri və xalqlarının milli, siyasi, iqtisadi, mədəni ehtiyatlarını türk xalqlarının inteqrasiyasına uğurla yönəldən İlham Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev kimi, mənsub olduğu xalqın, millətin və etnosun gələcək taleyinin məhz hansı hədəflərlə bağlı olduğunu və onlara doğru gedən yolun tarixin hansı yaddaş səhifələrindən keçdiyini çox gözəl bilir. Bu mənada, cənab Prezidentin I Türkoloji Qurultayın tarixi mənası, milli mahiyyəti və perspektivi haqqındakı strateji düşüncələri onun verdiyi sərəncamda öz əksini dolğun şəkildə tapmışdır.

Sərəncamda deyilir ki, "I Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır".

Qurultay haqqında ilk baxışdan hamımızın bildiyi məsələlər təsirini bağışlayan bu abzasda öz əksini tapmış konseptlər, əslində, milli tariximizin hansı nöqtədə necə sarsıdıldığını, türk tarixinin inkişaf dialektikasının hansı məqamlarda ağır zərbələr altında qırıldığını, bu taleyin hansı antimilli istiqamətlərə yönəldildiyini və ən başlıcası, türk xalqlarının birlik yolunun hansı köklərdən başlayaraq inkişaf etdirməyin lazım olduğunu göstərir.

Sözügedən abzasın mənası, mahiyyəti və ideoloji substratı aşağıdakı konseptlər üzərində qurulmuşdur:

- türk xalqlarının ortaq keçmişə və zəngin irsə malik olması;
- onların mədəni inteqrasiyasının vacibliyi;
- türkologiyanın bir elmi düşüncə sistemi olmaqdan daha ziyadə milli və siyasi əhəmiyyətə malik olması;
- türk dünyasının dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətlərinin öyrənilməsinin prioritet istiqamətlərə çevrilməsi;
- latın qrafikası əsasında vahid ümumtürk əlifbasının türk xalqlarının etnik-milli kommunikasiya modeli kimi əhəmiyyəti.

Sərəncamda Bakı şəhərinin türk dünyasının etnik-mədəni "episentri" kimi rolu xüsusi vurğulanır:

"Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün I Türkoloji Qurultaya evsahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi".

Bütün mənəviyyatı və əqidəsi ilə türk dünyasına bağlı olan İlham Əliyevin sərəncamında Bakı şəhərinin I Qurultayın keçirildiyi məkan kimi diqqət mərkəzinə gətirilməsi təkcə real tarixin xatırlanması olmayıb, gələcəyə yönəlik alt mənalar da daşımaqdadır. Sərəncamdan aydın olduğu kimi, Bakı şəhəri XX əsrin əvvəllərində, sözün həqiqi mənasında, türk-müsəlman dünyasının intellektual mərkəzi rolunu oynayırdı. Bu, təsadüfi olmayıb, Azərbaycanın hələ sovet hökuməti qurulana qədərki tarixi ilə sıx bağlı idi. Dünyanın ən zəngin neft yataqlarının olduğu Bakı sənaye şəhərinə çevrilmiş, buraya ən müxtəlif yerlərdən savadlı mühəndislər, öz sahəsinin bilicilələri olan mütəxəssislər, istedadlı sənət adamları, o cümlədən elm adamları gəlmişdilər. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətində universitetin qurulması milli intellektual potensiyanın inkişafında böyük rol oynamışdı. Bütün bunlar I Türkoloji Qurultayın keçirildiyi 1926-cı ilə qədər Bakını artıq, qeyri-rəsm də olsa, türk dünyasının mərkəzinə çevirmişdi.

Sərəncamda türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanması məhz həmin intellektual potensiyanın (XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların) əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin reallaşması kimi qiymətləndirilir.

Bütün bunlar sərəncamın rəsmi üslubu və ritorikasının alt qatlarına, dərinliklərinə diqqət yetirməyə vadar edir. Dünən Bakının XX əsrin əvvəllərində türk dünyasının intellektual mərkəzinə çevrilməsinin bu gün vurğulanmasının türk dünyasının gələcək inkişafı baxımından dərin strateji və taktiki mənaları vardır. Bakı bu gün, sözün həqiqi mənasında, türk dünyasının hər mənada mərkəzinə çevrilməkdə, türk xalqlarının taleyi ilə bağlı ən mühüm qərarların qəbul olunduğu, ümummilli strategiya və taktikaların qurulduğu paytaxt rolunu oynamaqdadır. Bu cəhətdən, sərəncamda Bakının nümunəsində, əslində, Azərbaycanının türk və müsəlman dünyasında oynadığı tarixi rola diqqət yetirilmişdir.

Azərbaycan coğrafi baxımdan bütün türk dünyası üçün mühüm körpü rolunu oynamışdır. İstər Şimal və Cənub, istərsə də Şərq və Qərb türk axınları tarixən hər zaman Azərbaycanla bağlı olmuş və bu mənada, türk dünyasının tarixi taleyinin ən mühüm hadisələri Azərbaycanla əlaqələnmişdir. Avrasiyada siyasi, milli, hərbi və digər səbəblərdən baş verən tarixi miqrasiyaların ən mühüm körpülərindən biri məhz Azərbaycan idi. Bütün bu tarixi reallıqların ən böyük sübutu Azərbaycan dilidir. Ana dilimiz türk dilləri arasında yeganə dildir ki, türk dillərinin əsas qollarının ümumi xüsusiyyətlərini həm leksik, həm də sintaktik baxımdan özündə əks etdirir. Çünki Azərbaycan özü şərqi və qərbi türk bölgələri arasında körpü rolunu oynadığı kimi, Azərbaycan dili də ortaq dil kimi eyni rolu oynamışdır. Bu mənada, sərəncamda Bakının intellektual mərkəz kimi rolunun vurğulanması tarixi-mədəni reallıqları özündə əks etdirir.

Cənab İlham Əliyevin imzaladığı sərəncamın daha bir mühüm əhəmiyyəti türk dünyasının inkişafına hər zaman mane olmuş, türk xalqlarının siyasi, milli, mədəni baxımdan tərəqqisini əhəmiyyətli dərəcədə ləngitmiş hədəfin müasir geosiyasi reallıqlar fonunda dəqiq şəkildə göstərilməsidir:



"I Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı manеələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır".

Doğrudan da, son dərəcə acı və faciəvi bir həqiqətdir ki, 1926-cı il I Türkoloji Qurultay nümayəndələrinin böyük əksəriyyəti amansız və qanlı şəkildə 1930-cu illər repressiyasına məruz qaldı. Əlbəttə, bu gün bunu XX əsrin 30-cu illərinin amansız stalinizm rejimi ilə əlaqələndirmək asandır və zahiri planda bu, əslində, doğrudan da belədir. Ötən əsrin 30-cu illərindən başlamış 50-ci illərin sonlarına qədər neçə milyon sovet insanı amansız cəza maşınından keçərək həyatını, sağlamlığını, karyerasını itirdi. Bu cəhətdən, I Türkoloji Qurultay nümayəndələrinin qətli, həbsi, yaxud bu və ya digər şəkildə cəzalandırılması, ümumən, 30-cu illər repressiyalarının tərkib hissəsi idi. Ancaq bu hadisəni yalnız həmin illərin günahı kimi izah etmək onun əsl mahiyyətini təhrif etmək deməkdir. Çünki burada məsələnin əsl mahiyyəti təkcə türkologiya elmi ilə bu və ya digər şəkildə bağlı olan insanların antisovet, xalq düşməni adları altında məhv edilməsi ilə yox, rus-sovet ideoloqlarının türk milli kimliyinin elmi-intellektual səviyyəsi olan türkologiya elminin məhvi ilə bağlı idi. Məqsəd bu elmi məhv etmək, yerində özləri tərəfindən konstruksiyalaşdırılmış yeni türkologiya - "sovet türkologiyası" yaratmaq idi. Bu cəhətdən, I Türkoloji Qurultay nümayəndələrinin məhvi, sözün həqiqi mənasında, türkologiyanın genosidi idi.

Bu cəhətdən, sual meydana çıxır: Əgər mövcud türkologiya elminin nəhənglərini, əsasən, qeyri-türklər təşkil edirdilərsə və onların da əksəriyyəti çar dövrünün imperiya təfəkkürünə malik olan alimlər idilərsə, bu halda onları belə amansız repressiyalara məruz qoymaqda məqsəd nə idi?

Məsələ bunda idi ki, çar dövrünün alimləri dünya elmi ənənələri əsasında yetişmiş, müstəqil təfəkkürə malik mütəxəssislər idi. Kapitalist dünyasını bütün səviyyələr, o cümlədən elm səviyyəsində inkar edən sovet ideologiyası "köhnə dövrün" alimlərinə bütün hallarda şübhə ilə yanaşır və onlara etibar etmirdi. I Türkoloji Qurultay, əslində, sovet ideoloqlarının "keçmişi", yəni kapitalizmi təmsil edən türkoloqlara etibarsız yanaşmasını təsdiq etdi. I Türkoloji Qurultaya gələn nümayəndələr sovet hökumətinin türk xalqlarının guya gələcək inkişafı haqqındakı ideyalarını səmimi qəbul edərək, türklüyün və türkologiyanın gələcəyi haqqında böyük ideyalar irəli sürdülər. Əgər həmin ideyalar gerçəkləşərdisə, sayca çox nəhəng kütləni əhatə edən türk xalqları sovet dövlət quruculuğunun hər bir sahəsində aparıcı çəkiyə malik hakim xalqlarına çevrilə bilərdilər. "Formaca milli, məzmunca sosialist" kimi son dərəcə hiyləgər şüarla milli quruculuq siyasəti aparan rus-sovet dövlətinin, əslində, türk xalqlarının dialektik inkişafı haqqında heç bir istəyi yox idi. Onların əsl niyyəti türk xalqlarının inkişafını formal modellər əsasında təmin etmək, əslində isə onların bütün milli, mədəni, iqtisadi siyasi potensiyalarını çarizm dövründə olduğu kimi sümürmək, maskalanmış şəkildə istismar etmək idi. Təsadüfi deyildir ki, I Türkoloji Qurultayın bütün sənədləri stalinizm repressiyalarını həyata keçirən müstəntiqlərin əlində "xoş gələcəyin" inkişaf proqramlarından ittiham aktlarına çevrildi. Hər kəs qurultayda danışdığı sözlərə, etdiyi çıxışlara görə amansız şəkildə cəzalandırıldı. Bu, türkologiyanın qətli, repressiyası, soyqırımı idi.

Təkcə türkologiyada deyil, bütün sahələrdə türklərə münasibətdə antidialektik olan sovet ideoloqları milli kimlik düşüncəsinin nə qədər güclü bir "fenomen" olmasını bilsələr də, yenə də onu birdəfəlik yox etməkdə israrlı idilər. Bu məqsədlə yeni türkoloqlar nəsli - sovet türkologiyası formalaşdırıldı. Lakin buna baxmayaraq, onlar milli kimliyin yaddaş arxetiplərini türk xalqlarına, o cümlədən Azərbaycan xalqına unutdura bilmədilər. Bu barədə I Türkoloji Qurultayın 80 illik yubileyi ilə bağlı cənab İlham Əliyevin hələ 2005-ci ildə verdiyi sərəncamda deyilir:

"Bununla belə, Azərbaycan xalqının qabaqcıl nümayəndələri sonralar da dilimizin inkişafı yolunda öz imkanları daxilində bu və ya digər dərəcədə fəaliyyət göstərmişlər. Əllinci illərin siyasi ab-havasında meydana çıxan yumşalma ana dili ilə bağlı proseslərin müsbət istiqamətdə sürətlənməsinə müəyyən təsir göstərmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə dilimizin inkişafı yeni mahiyyət kəsb etmişdir. Bu proses Azərbaycan dilinin tərəqqisində növbəti mərhələlərin başlanğıcı olmuşdur. Həmin illərdən etibarən Azərbaycan dilinin istifadə dairəsi genişlənmiş, onun tədrisi və tədqiqi ilə məşğul olan müəssisələrə xüsusi qayğı göstərilməyə başlanmışdır. Azərbaycan dili Sovet İttifaqı xalqlarının dilləri arasında öz ölkəsinin konstitusiyası ilə təsbit edilmiş azsaylı dövlət dillərindən biri olmuşdur".

Cənab İlham Əliyevin hələ iyirmi il öncə verdiyi bu sərəncamda I Türkoloji Qurultaydan başlanan milli kimlik ideyalarının bir toxum kimi necə cücərməsi və milli düşüncəyə malik olan insanların, xüsusilə Ulu Öndərin düşüncəsində necə milli quruculuq siyasətinə töhfəsi öz əksini parlaq şəkildə tapmışdır.

Cənab İlham Əliyevin I Türkoloji Qurultay haqqında verdiyi son sərəncam artıq tam yeni reallıqlar fonunda meydana çıxmışdır. Sərəncamda deyildiyi kimi:

"I Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində I Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür".

I Türkoloji Qurultay rus-sovet ideologiyası tərəfindən qanla boğduruldu və qətlə yetirildi. Məqsəd birmənalı idi: türk milli kimliyini soyqırımına uğratmaq və türk xalqlarını "sovet insanı" adı altında manqurta - milli kimliyini unutmuş, ona düşmən kəsilmiş varlıqlara çevirmək. Lakin onlar buna nail ola bilmədilər. Azərbaycan xalqı milli ziyalıların, o cümlədən dahi şəxsiyyət Heydər Əliyevin simasında milli-mənəvi dəyərləri yaşatmağa nail oldu. Bu gün Ali Baş Komandan İlham Əliyev xalqımızı torpaqlarımız uğrunda ayağa qaldırıb, zəfərə qovuşdurduğu kimi, bütün türk dünyasında da türk milli kimliyinin zəfər çalmasına özünün dəyərli töhfələrini verir. Bütün bunlar bizləri ruhlandırmaqla bərabər, hamımızdan məsuliyyətli olmağı tələb edir. Çünki milli zəfər təkcə ayrı-ayrı fərdlərin deyil, bütün millətin bir yumruq kimi birləşməsi ilə əldə olunur.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***




# Silahlı Qüvvələrimiz müstəqilliyimizin, ərazi bütövlüyümüzün və suverenliyimizin keşiyində möhkəm dayanıb

**D**ünya təcrübəsindən məlumdur ki, müxtəlif zamanlarda yeni yaranan, müstəqillik qazanan ölkələrdə ən ümdə və önəmli vəzifələrdən biri məhz dövrün tələblərinə uyğunlaşdırılan Konstitusiyanın hazırlanıb qəbul olunmasıdır. Konstitusiya dövlətçiliyin və cəmiyyətin fəaliyyətinə hüquqi təminat yaradan və onu nizamlayan əsas qanundur. Konstitusiya həm də dövlətin siyasi, hüquqi, iqtisadi sistemlərinin əsaslarını müəyyənləşdirir. Konstitusiya vətəndaşların hüquq və azadlıqlarını təsbit edən və buna zəmanət verən əsas sənəddir. Bu ali sənəd yüksək hüquqi qüvvəyə malik olduğuna görə onun prinsipləri bütün digər qanunvericilikdən üstün hesab olunur.



Azərbaycan xalqı XX əsrin əvvəllərində müstəqilliyinə qovuşdu. Təəssüflər olsun ki, həmin dövrdə əsas dövlət atributlarına mənsub olan xalqımız olduqca mürəkkəb tarixi şəraitin diktə etdiyi çətinliklər səbəbindən öz Konstitusiyasını yaratmağa imkan tapmadı. 1917-ci ildə Rusiyada baş vermiş sosialist inqilabı nəticəsində hakimiyyətə gəlmiş qüvvələr bir çox millətlər kimi bizim də azadlığımızı əlimizdən aldı, müstəqil dövlətimizi süquta uğratdı. Keçmiş sovetlər dövründə Azərbaycan müttəfiq respublikalardan biri kimi dörd dəfə Konstitusiya qəbul etmişdi. Təəssüf ki, bu hüquqi sənədlərin heç birində xalqımıza xas olan milli dəyərlər öz əksini tapmamışdır. Tapa da bilməzdi, çünki həmin dövrlərdə qanunlar əsasən sovet ideologiyası ruhunda yazılırdı.

1991-ci ildə yaranmış tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı müstəqil dövlətçiliyini bərpa etdi. İlk illərdə dövlətin qeyri-peşəkar siyasətçilər tərəfindən idarə olunması səbəbindən cəmiyyətin başqa sahələrində olduğu kimi, qanunvericilik bazasında da boşluq yaranmışdı. Yalnız görkəmli dövlət xadimi Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində olduqca vacib və zəruri islahatlar həyata keçirilməyə başlandı.

1994-cü ildə Ümummilli Liderin sədrliyi ilə Konstitusiya komissiyası yaradıldı. Artıq Sovet ideologiyası tarixin arxivinə atıldığına görə qanunlarımız milli ruhda yazıldı. Hazırlıq işləri başa çatdıqdan sonra 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə Azərbaycanın Əsas Qanunu qəbul edildi. Dövlətin fəaliyyətini tənzimləyən belə bir mükəmməl Konstitusiyanın hazırlanması bir həqiqəti də sübut etdi ki, ölkəyə yalnız yüksək idarəçilik təcrübəsi olan siyasi xadimlər rəhbərlik etməlidirlər. Ümummilli Lider Heydər Əliyev çıxışlarının birində bu tarixi sənədin əsas mahiyyəti və prinsiplərini təhlil edərək demişdir: "Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır".

Azərbaycan Respublikasının Əsas Qanunu olan Konstitusiyamızda Silahlı Qüvvələr və Vətənin müdafiəsi ilə bağlı maddələr də öz əksini tapıb. Konstitusiyanın 9-cu maddəsində Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. Bu gün doğma və qalib ordumuzun sıralarında xidmət edən hərbi qulluqçular Konstitusiyamızdan irəli gələn tələbləri dərindən dərk edərək vətənimizə layiqincə xidmət etməyin məsuliyyətini öz üzərlərində hiss edirlər.

Konstitusiyanın müvafiq maddələrində Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır. Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün qanunlar toplusu qəbul edilmişdir. Azərbaycan Respublikasının Milli Məclisi müxtəlif illərdə bu sahədə qanunlar qəbul etdi. Müəyyən dövrlərdə qanunları təkmilləşdirmək məqsədilə hüquqi aktlara dəyişikliklər və əlavələr də olundu.

Bu baxımdan, "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biridir. Həmin qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq və hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək, həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq, Silahlı Qüvvələrin daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir. Qəbul olunmuş mövcud qanunla müəyyən edilmiş hədlərdə və növlərdə hərbi xidmətə yarayan kişi cinsindən olan hər bir vətəndaş ordu sıralarında həqiqi hərbi xidmət keçməlidir. Ürəyi vətənpərvərlik hissləri ilə döyünən gənclərimiz bu qanunlardan irəli gələn tələbləri yüksək səviyyədə yerinə yetirərək Silahlı Qüvvələrimizin sıralarında böyük həvəslə xidmət edirlər. Müntəzəm olaraq keçirilən təlim və məşqlərdə döyüş təcrübələrini artıran zabit və əsgərlərimiz hər an torpaqlarımızın müdafiəsinə hazırdırlar.

Konstitusiyamızda Silahlı Qüvvələrlə bağlı maddələrdən irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə daim müvafiq addımlar atılır. Silahlı Qüvvələrimizin müasir texnika, silah və sursatla təchiz olunmasına, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə geniş imkanlar yaradılmışdır. Hərbçilərin istifadəsində olan silah-sursat, texnikalar və başqa avadanlıqlar Silahlı Qüvvələrin əmlakı hesab olunur və hərbçilər tərəfindən etibarlı qorunur. Konstitusiyamızın 9-cu maddəsinin 1-ci bəndində bu barədə yazılmışdır: "Silahlı Qüvvələrin fəaliyyətinin təmin edilməsi və ona həvalə edilmiş vəzifə və tapşırıqların yerinə yetirilməsi üçün istifadə edilən hərbi infrastruktur obyektləri, silah və hərbi texnikanın bütün növləri, maddi vasitələr və digər daşınar və daşınmaz əmlak Silahlı Qüvvələrin istifadəsində olan əmlakdır".

Bu gün qürur yerimiz olan Silahlı Qüvvəllərdə - Quru Qoşunları, Hərbi Dəniz, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının birləşmə və bölmələrində xidmət keçən şəxsi heyətin intizamı yüksək səviyyədədir. Bütün hərbi hissə və birləşmələrdə hərbi nizamnamələrin tələblərinə yüksək səviyyədə riayət olunur. Bütün bunlar isə şəxsi heyətin əsl hərbçi kimi hazırlanmasına yeni əlverişli imkanlar açır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılır, lazımi maddi-texniki baza və şərait yaradılır.

Əsas Qanunumuz olan Konstitusiyanın tələblərinə uyğun olaraq Silahlı Qüvvələrimiz daim inkişafdadır. Ordumuzun daha da güclənməsi üçün zaman-zaman hərtərəfli şəraiti olan təhsil və tədris bazası yaradılmışdır. Bu gün müasir standartlara cavab verən Heydər Əliyev adına Hərbi İnstitut Silahlı Qüvvələrimiz üçün hərbi kadrlar hazırlayır. Təlim və Tədris Mərkəzində gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən yaradılmış Silahlı Qüvvələrin Hərbi Akademiyası hazırda Milli Müdafiə Universiteti adı ilə fəaliyyətini uğurla davam etdirir.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrində komanda-qərargah və taktiki təlimlər, dərslər keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır. Yüksəksəviyyəli hazırlıq özünü İkinci Qarabağ müharibəsində erməni işğalçıları üzərində qazanılan Zəfərlə bir daha sübut etdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrində keçirilmiş irimiqyaslı əməliyyat-taktiki təlimlərin birində iştirak edərkən demişdir: "Azərbaycan Ordusu gündən-günə güclənir. Azərbaycanda ordu quruculuğu prosesi çox uğurla gedir və bu bizə imkan verir ki, hərbi gücümüzü artıraq. Ordu quruculuğu hər bir ölkə üçün çox önəmli məsələdir. Xüsusilə müharibə şəraitində yaşayan ölkə üçün bu, prioritet olmalıdır. Bu, belədir və Azərbaycanda ordu quruculuğu ən prioritet məsələdir".

İftixarla demək olar ki, bu gün Azərbaycanın Silahlı Qüvvələri nəinki regionumuzda, o cümlədən dünyada ən güclü ordulardan biridir. Silahlı Qüvvələrimiz Konstitusiyamızdan irəli gələn tələbləri uğurla yerinə yetirərək həm 44 günlük Vətən müharibəsində, həm ondan sonra həyata keçirilən antiterror əməliyyatları zamanı ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Konstitusiyaya əsasən, Silahlı Qüvvələr Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü qorumaq, onun daxili təhlükəsizliyini təmin etmək üçün yaradılmışıdır. Deməli, Silahlı Qüvvələrimiz üzərinə düşən vəzifə borcunun öhdəsindən layiqincə gəlmişdir. Zabit və əsgərlərimiz üzərlərinə düşən vəzifələri yerinə yetirərək döyüş əməliyyatları zamanı böyük igidlik və qəhrəmanlıqlar göstərmişlər.

İkinci Qarabağ müharibəsi Zəfərlə başa çatdıqdan sonra da Silahlı Qüvvələrdə müvafiq islahatlar aparıldı, onun gücləndirilməsi üçün zəruri tədbirlər həyata keçirildi. Ermənistanla şərti dövlət sərhədində yeni hərbi hissələr yaradıldı, onların maddi-texniki təchizatı yüksək səviyyədə təmin edildi. İslahatlar isə ölkəmizin ərazi bütövlüyünün təhlükəsizliyi məqsədilə keçirilmişdi. Prezident İlham Əliyev Silahlı Qüvvələrdə aparılan islahatlara toxunaraq demişdir: "Struktur islahatları, idarəetmə və özünü müdafiəetmə qabiliyyəti nöqteyi-nəzərindən biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək. Bu gün də belədir, amma daha böyük işlər də görülməlidir. Yenə də deyirəm, bu sahə elə sahədir ki, burada az danışmaq, çox iş görmək lazımdır. Ona görə bundan artıq demək istəmirəm. Hər halda Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir. Azərbaycan xalqı bundan sonra da rahat yaşaya bilər və yaşamalıdır".

Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkəmizin artan beynəlxalq nüfuzu və qüdrəti, iqtisadi imkanları sayəsində dünyanın ən güclü orduları siyahısında yer alan Azərbaycan Silahlı Qüvvələri ilə xalqımız fəxr edir. Silahlı Qüvvələrimiz quruda, suda və havada döyüş tapşırıqlarını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə əsaslanıb demək olar ki, qürur duyduğumuz Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən hazırlıqlı və müasir ordusu hesab olunur.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Uzaqgörən strategiyanın nəticəsi

Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin dövlət müstəqilliyinin, suverenliyinin və vətəndaş azadlıqlarının ən ali təminatıdır. Bu sənəd yalnız hüquqi sistemin əsasını deyil, həm də milli dövlətçiliyin rəmzini təşkil edir. Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi ilə qəbul edilmiş və Prezident İlham Əliyevin rəhbərliyi ilə müasirləşdirilən Konstitusiya bu gün də Azərbaycan cəmiyyətinin davamlı inkişafını, sabitliyini və hüquqi dövlət prinsiplərinə sadiqliyini təmin edən strateji sənəd olaraq qalır.



Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında 1991-ci il 18 oktyabr tarixli Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə ölkədə yaranmış siyasi böhran, idarəetmədəki səriştəsizlik və anarxiya dövlət institutlarının formalaşmasına mane olmuş, qanunçuluq və vətəndaş təhlükəsizliyi təmin edilməmişdir. Bu dövrdə cəmiyyətin bütün sahələrində dərin böhran yaşanırdı. Lakin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəni xaosdan qurtardı, ictimai-siyasi sabitliyi bərpa etdi və müasir dövlət quruculuğunun möhkəm hüquqi-siyasi təməlini qoydu.

Ulu Öndər Heydər Əliyev qeyd edirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".

Məhz bu uzaqgörən strategiyanın nəticəsi olaraq, Ümummilli Liderin rəhbərliyi ilə Konstitusiya Komissiyası tərəfindən müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsi hazırlandı və 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edildi. Referendumda seçicilərin 86 faizi iştirak etdi, onların 91,9 faizi Konstitusiyanın lehinə səs verdi. Yeni Əsas Qanun 1995-ci il noyabrın 27-də qüvvəyə mindi.

Ulu Öndər Heydər Əliyevin 1995-ci il 15 dekabr tarixli fərmanı ilə 12 noyabr - Azərbaycan Respublikasının Konstitusiyası Günü elan edilmiş, 1996-cı il 1 noyabr tarixli fərmana əsasən isə bu günün ölkə miqyasında təntənəli şəkildə qeyd olunması təmin edilmişdir. Bu qərar Azərbaycanın milli dövlətçilik tarixində Konstitusiyanın müstəsna əhəmiyyətini təsdiqləyən mühüm addım idi.

Konstitusiyanın qəbul edilməsi Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri kimi dəyərləndirilir. Bu sənəd müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafın hüquqi bazasını formalaşdıran və insan hüquqlarını qoruyan mükəmməl hüquqi əsas oldu.

Azərbaycan Respublikasının Konstitusiyası ölkədə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinə möhkəm hüquqi baza yaratdı. Sənəd hakimiyyət bölgüsü prinsipini - qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinin ayrılığını təmin etdi və insan hüquq və azadlıqlarının qorunmasını dövlətin ali vəzifəsi kimi müəyyənləşdirdi.

Konstitusiyada müasir hüquqi dövlət quruculuğu meyilləri nəzərə alınaraq ədalət mühakiməsi institutunun yaradılması nəzərdə tutuldu. Bu əsasda 1997-ci il oktyabrın 21-də qəbul edilmiş "Konstitusiya Məhkəməsi haqqında" qanuna əsasən, 1998-ci il iyulun 18-də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. Bu orqan Konstitusiyanın aliliyinin təminatçısı kimi dövlət hakimiyyəti sistemində mühüm yer tutdu.

Əsas Qanun dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağı, vətəndaş cəmiyyətinin bərqərar olmasını, qanunların aliliyini və bazar iqtisadiyyatı prinsiplərini təmin etməyi dövlətin əsas məqsədləri kimi təsbit etdi.

Konstitusiyanın 48 maddəsi bilavasitə insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur. Bu maddələr beynəlxalq hüquqi sənədlərə uyğun olaraq hazırlanmış və bütün vətəndaşların - dilindən, dinindən, irqindən və etnik mənsubiyyətindən asılı olmayaraq - bərabər hüquqlara malik olmasını təmin edir.

Zamanla yaranan yeni sosial-siyasi reallıqlar Konstitusiyada dəyişikliklərin edilməsini zəruri etmişdir. Son dəyişikliklərlə Birinci vitse-prezidentlik institutu yaradıldı və bu, dövlət idarəçiliyi sistemində yeni funksional mərhələ açdı. Dəyişikliklərin əsas məqsədi dövlətin idarəetmə səmərəliliyini artırmaq, məhkəmə hakimiyyətinin müstəqilliyini gücləndirmək və insan hüquqlarının daha etibarlı müdafiəsini təmin etmək idi.

Azərbaycanın tarixi Zəfəri ilə nəticələnən 2020-ci il Vətən müharibəsi və 2023-cü il Dövlət Suverenliyinin Tam Bərpası əməliyyatı nəticəsində ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Bununla da Konstitusiyanın hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar edildi.

Bu tarixi nailiyyətlərə və Konstitusiyanın qəbulunun 30-cu ildönümünə əsaslanaraq, Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib, 2025-ci il 11 fevral tarixli sərəncamla müvafiq Tədbirlər Planı təsdiq olunub.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2025-ci il 10 oktyabr tarixli Qanunla "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı təsis edilib.

***Pərvanə VƏLİYEVA,***
***Milli Məclisin deputatı***

# Qayğı məmnunluq doğurur

**YAP Mingəçevir şəhər təşkilatının şəhər icra hakimiyyəti ilə birgə 8 Noyabr Zəfər Günü ilə əlaqədar şəhid ailələri, qazi və veteranlarla çay süfrəsi ətrafında görüşü keçirilib.**

Görüşdə YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev çıxış edərək bildirdi ki, 44 günlük Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və ordumuzun şücaəti ilə ərazilərimizin işğaldan azad olunması Azərbaycan tarixinin parlaq səhifəsinə çevrilib: "Birinci Qarabağ müharibəsində, ondan sonrakı atəşkəs dövründə, düşmənin çoxsaylı təxribatları nəticəsində, o cümlədən Aprel döyüşlərində, Vətən müharibəsində, 2022-ci ilin 12-14 sentyabr hadisələri zamanı, 2023-cü ilin 19-20 sentyabrındakı antirerror əməliyyatlarında torpaqlarımızın qorunması və azad olunması uğrunda həlak olan şəhidlərimizin xatirəsi xalqımız tərəfindən daim əziz tutulur, ehtiramla yad edilir".

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov çıxış edərək qeyd etdi ki, 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində azad olundu, sərhədlərimiz bərpa edildi, 2020-ci il Azərbaycan tarixinə Zəfər ili kimi daxil oldu: "2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunun sülhməramlıların nəzarəti altında olan ərazilərində keçirilən antiterror əməliyyatlarından sonra bütün suverenliyimiz tam bərpa edildi. Artıq bütün ərazilərimizdə Azərbaycan bayrağı dalğalanır. Prezident İlham Əliyevin apardığı ardıcıl məqsədyönlü siyasətin nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib".

Görüşdə Şəhid Ailələrinin Müdafiə Cəmiyyətinin sədri İranə Həsənova, şəhid atası İldırım Əbdürəhmanov, Qarabağ qaziləri Əliağa Bəndəliyev, Məxluq Həsənov və Vətən müharibəsi veteranı Namiq İbrahimli çıxış etdilər. Onları narahat edən məsələlərlə bağlı aidiyyəti qurumlara tapşırıqlar verildi.

***L.QULİYEV,***
***"Azərbaycan"***





# AMEA-nın prioritetlərinin fəlsəfəsi

Prezident İlham Əliyevin 18 mart 2025-ci il sərəncamına əsasən, il boyu Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi müxtəlif tədbirlərdə qeyd edildi.

Nəhayət, noyabrın 3-də dövlət başçısının iştirakı və bu mühüm elm ocağının gələcək prioritet istiqamətləri haqqında geniş məruzəsi Elmlər Akademiyasının müstəqil və yenilənən Azərbaycanın varlığı və inkişafında necə əhəmiyyətli bir yer tutduğunu bir daha təsdiqlədi. Cənab İlham Əliyev öz nitqində həm narahat, xüsusi diqqət tələb edən məsələləri vurğuladı, həm də onların dövlətin və bilavasitə özünün nəzarətində olduğunu xatırladaraq həll yollarından danışdı. Dövlət başçısının çıxışında incə və olduqca vacib, bir-birini tamamlayan iki məqam var idi: müasir Azərbaycanın öz inkişafında Ulu Öndərin siyasətinə sadiqliyi və akademiyanın tarixində Ulu Öndərin taleyüklü rolu, qayğısı və diqqəti. Bu, Milli Elmlər Akademiyasının müasir Azərbaycanda yerini və əhəmiyyətini təkrar təyin etmiş oldu. Diqqətli təhlildən belə məlum olur ki, fəlsəfə dövlət başçısının məruzəsinin bütövlükdə təməlində idi və fəlsəfənin varlığı mövcud istiqamətlərlə paralel inkişafı bir aksiomdur.

### Dəyişən dünyada Elmlər Akademiyası

Dünyanın dəyişdiyini və Azərbaycanın onunla ayaqlaşmaq zərurətini daha çox və ilk növbədə, dövlət başçısı hiss edir. Məhz buna görə də onun "Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik. Ona görə təbii ki, illər keçdikcə qarşıda duran vəzifələr də dəyişir. Ona görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir" - deməsi diqqət çəkir. Danılmaz faktdır ki, Vətən müharibəsindəki böyük qələbə Azərbaycanın dünyada tanıdılmasında ən böyük və şərəfli addım oldu. Prezidentin öz sözləri ilə desək, hazırda çalxalanan "dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qalxdığı" bir vaxtda "bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır". Bununla yanaşı, qalib ölkənin dünyada nümunəvi tərəfdən tanıdılmasında alimin rolu mühümdür. O dərk etməlidir ki, yalnız öz müəssisəsinin deyil, beynəlxalq aləmdə Azərbaycanın təmsilçisi, daxildə isə onun inkişafının təminatıdır. Dövlət başçısının dönə-dönə "Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür" deməyi də bu missiyanı təsdiqləmiş olur.

Filosof Frensis Bekon deyir ki, "bilik gücdür" və cənab İlham Əliyev öz tarixi çıxışında Azərbaycanın güclənməsinin əsas yollarından birinin məhz Elmlər Akademiyasından, alimlərin düşüncəsindən keçdiyini vurğuladı, xatırlatdı və bu işdə dövlətin daim onların yanında olacağını bildirdi. "Bu gün güc amili dünyada aparıcı amildir. Yəni bugünkü dünya budur və belə olan halda təhlükəsizlik, müdafiə potensialı, hərbi güc əsas məsələdir" - deyən Ali Baş Komandan 44 gün ərzində öz biliyi, təfəkkürü, məntiqi, məsələyə dərindən nüfuz etmək qabiliyyəti ilə diplomatik müstəvidə bir ordunun işini gördü və zəfər qazandı. Onun eyni bacarığı, məsuliyyəti ölkənin alimlərindən tələb etməyi məntiqli və qanunauyğundur.

Əslində, dövlət başçısı diqqəti qılıncla zəfər çalan Azərbaycan üçün indi də qələmin vacibliyinə və bu qələmin prioritet istiqamətlərinə yönəltdi. Qədimdən bəri məlum olan bir aksiom var və 44 günlük müharibə zamanı Ali Baş Komandan bunu bir daha əyani şəkildə sübut etdi ki, özünü dərk edən, şəxsiyyətinə dərindən bələd olan insan sözlərində və əməllərində həm özünə güvənir, həm də ətrafına toplananda etibar yaradır. Bu baxımdan, onun "Biz həm özümüzü müdafiə etməliyik, həm də ki, bizə zərər vermək istəyənlərə də layiqli cavab verməliyik" sözləri fiziki baxımdan daha çox, artıq sülh dövründə öz inkişaf yoluna başlamış Azərbaycan vətəndaşının, xüsusilə aliminin özgüvəninin formalaşmasının vacibliyini vurğulayır.

### Süni intellekt günün tələbidir

Sürətlə dəyişən dünyanın aparıcı qüvvələrindən biri də süni intellektdir ki, fəaliyyətin bütün istiqamətlərində öz hökmünü göstərir, sözünü yeridir. Onun gücünü yanlış anlayanlar bəzən onu təbii intellektlə qarşılaşdırır, ondan daha üstün olduğunu ehtimal edir və onu canlı insan üçün bir təhlükə səviyyəsinə qədər qaldırır. Yalnız intellektin əsl mahiyyətini dərk edənlər bilir ki, süni intellektin idarə düyməsi canlı insanın ağlına və niyyətinə tabedir. Məhz bunu vurğulamaq üçün öz çıxışında cənab İlham Əliyev buyurur: "Artıq hər kəs görür və bilir ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir. Yəni təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun". Hələ 22 il əvvəl, 2003-cü ildə "Neft kapitalını insan kapitalına çevirməliyik!" tezisini irəli sürəndə dövlət başçısı texnologiyanın hakim olduğu bir dövrlə ayaqlaşmaq üçün zəmin hazırlayırdı. Məhz bu səbəbdən bu gün Azərbaycan dünyada gedən texnoloji inkişafla nəinki ayaqlaşır, hətta ilk dəfə onun məhsulundan istifadə edərək dünyaya 44 günlük bir möcüzə göstərdi.

Süni intellekt onu idarə edən təbii təfəkkürün inikasıdır. Elmin inkişaf yoluna baxanda belə qənaətə gəlmək olur ki, süni intellektin özü də bu inkişafda növbəti mərhələlərdən biridir. Başqa sözlə desək, bir gün onu da daha üst nəsil texnologiyanın əvəz edəcəyi şübhəsizdir. Sabit qüvvə və bu inkişafın təminatı isə məhz insan resursu, təbii intellektdir. Bunu bilən və diqqəti ona yönəldən ölkə Prezidenti deyir: "Tükənməz sərvət intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır". Bu, bir tərəfdən inkişafın şərti kimi alimin, digər tərəfdən, onun intellektinə sərmayə qoyan və dəstək göstərən dövlətin qarşılıqlı əməkdaşlığının zəruriliyinin vurğulanmasıdır.

Ağıllı olmaq, elmdə yeni kəşflər etmək işin yalnız yarısıdır, digər yarısı isə, o ağlı öz Vətəninin, xalqının rifahı üçün yönəltmək, yad maraqların xammalına çevrilməməkdir. Cənab Prezident qeyd etdi ki, "Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik". Deməli, özünü, öz xalqını tanıyan, təbii intellekti xalqa xidmət edən şəxs süni intellekti də o istiqamətə yönəldə bilər. Bir var, başqa təfəkkürün idarəsi ilə hərəkət etmək, ondan göstəriş gözləmək, hər addımında ondan asılı vəziyyətdə qalmaq, bir də var, özümüz diktə edən tərəf olaq, daxilimizdəki sabit varlıq özəyini qoruyaq və bəlli ideya naminə çalışaq. Hazırda ölkədə bütün sahələrdə inkişaf gedir və Prezident İlham Əliyev alimləri bütün sahələrdə əməkdaşlığa, məlum ideologiyaya həm öz payını verməyə, həm də bəhrələnməyə çağırdı.

### Dilin inkişaf fəlsəfəsi

Ağlın təzahürlərindən biri və birincisi, bəzi hallarda hətta istiqamətvericisi dildir. Məhz bu səbəbdən dövlət başçısının xüsusilə üzərində dayandığı məsələlərdən biri də Azərbaycan dilinin qorunması və inkişafı oldu. Belə yüksək kürsüdən az qala həyəcan təbili çalan, ana dilini yad kəlmələrlə çirkləndirməyi, onu itirmək səviyyəsinə qədər gətirməyi səhv və təxribat adlandıran cənab İlham Əliyev iki vacib xəttin paralel irəliləməsini vurğulayır. Birincisi, o, dili xalqın identikliyinin, milli mənsubiyyətinin göstəricisi olduğunu qeyd edir: "Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur". İkincisi isə, o, dili qorumağın yalnız dilçilərin deyil, hər bir vətəndaşın, xüsusilə alimlərin borcu olduğunu xatırladır: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər".

Alman filosofu Haydegger dili varlığın evi, düşüncə sahiblərini isə bu evin qoruyucusu adlandırır. Hegel də etiraf edir ki, xalqın inkişafında "yalnız alman təfəkkürü, onun fəlsəfi ənənələri deyil, həm də alman dilinin verdiyi imkanlar müəyyən rol oynamışdır". Deməli, dilin qorunmasının vacibliyini vurğulayanda və "biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər" deyəndə, əslində, İlham Əliyev millətin "varlığının evini" qorumağa və ilk növbədə, məhz düşüncə sahiblərini səfərbər olmağa çağırır.

Mühacir ərəb mütəfəkkiri Xəlil Cübran deyir: "Dil bütün millətin və ya onun ümumi mahiyyətinin yaradıcılıq təzahürlərindən biridir. Əgər yaradıcılıq zəifləyirsə, dilin inkişafı da dayanır". Bu, danılmaz bir faktdır ki, dil xarici təsirin altına düşüb elektrik şəkildə alınan kəlmələrlə öz leksik bazasını süni şəkildə yükləyirsə, dilin milli mahiyyəti bu yük altında boğulur, əzilirsə, deməli, düşüncə sahiblərinin yaradıcılığı zəifləyib, yaxud millətin öz kökü ilə əlaqəsi sarsılmaq üzrədir. Başqa sözlə desək, dildə gedən həm müsbət, həm də mənfi dəyişikliklər daha dərin proseslərin nəticəsi, təzahürüdür. Bu baxımdan, dövlət başçısının məhz belə bir açar məqama - dilə münasibətdə nəinki alimləri, həm də hər bir vətəndaşı həssas olmağa çağırışı ciddi və məsuliyyətli bir münasibət tələb edir.

### Tarixin fəlsəfəsi

Ölkə Prezidenti çıxışında tarixin üzərində xüsusi dayandı və alimlərin diqqətini bir neçə mühüm istiqamətə yönəltdi. Əvvəla, o, bu torpaqların qədim köklərinin öyrənilməsinin zəruriliyini vurğuladı: "Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır". Bu, xalqın böyüklüyünün, dərin kökə və sabit kimliyə malik olduğunun təsdiqidir və hər bir vətəndaşa, xüsusilə gənclərə böyük bir güvən hissi verir. Bu, dünənlə qürur duyub, keçmişlə kifayətlənmək deyil, uzunəsrlik bir xalqın bu günü və gələcəyi naminə məsuliyyət hissinin doğulması üçün şərtdir. Öz tarixini bilib və kimliyini bu kök üzərində formalaşdırmaq, başqa bir xalqı təqlid etmək, deməli, onun kölgəsinə çevrilmək təhlükəsindən qorunmaq üsuludur.

İkinci diqqət yetirilən məqam bu günün obyektiv şəkildə öyrənilməsi və gələcək nəsil üçün düzgün tarix yazılması oldu. Təqribən 30 il ərzində Azərbaycan zəngin bir tarix yaşadı: müstəqillik əldə etdi, işğala məruz qaldı, daxili, həm də xarici neqativ qüvvələrlə soyuq müharibə apardı, yumşaq gücdən ustalıqla istifadə etməyi öyrəndi, ən nəhayət, torpaqlarını müharibə yolu ilə azad edib dünyanın super gücləri ilə üz-üzə durmaq üçün güc topladı, qələbə qazandı və bütün beynəlxalq aləmə öz varlığını və unikallığını qəbul etdirdi. Prezidentin haqlı olaraq dediyi kimi: "Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var".

Bu gün sabah üçün tarixdirsə, deməli, bu günün şərəfli səhifələri gələcək nəslə bütün dolğunluğu və həqiqəti ilə ötürülməlidir. Xatırladım ki, bəzən qürurla "biz tarixi yaradırıq, başqaları yazır" deməyimiz bizim öz əleyhimizə çevrilib, faktlar təhrif olunub və bu, yalanın ayaq tutub yeriməyinə imkan yaradıb. Böyük Zəfərdən sonra dövlət başçısı qılıncla bərabər qələmin də vacibliyini vurğulayır: "Bizim şanlı Vətən müharibəmizin... hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir". Deməli, onu ən yüksək səviyyədə, tarixin həmin anına layiq şəkildə yazmaq ilk növbədə bizim öz öhdəliyimiz olmalıdır.

Üçüncü diqqət yetirilməli olan məqam dünənlə bu günün əlaqəsidir. Əbu Turxanın dediyinə görə, "cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir". Deməli, tarixin kəsilməzliyi prinsipinə müvafiq olaraq yalnız keçmiş sağlam bünövrə üzərində qurulmuş yenilik inkişafa və yüksəlişə səbəb ola bilər. Tarix tarixdə qalmamalıdır, ondan nəticə çıxarılmalıdır, çünki dünənini unudan sabahına əliboş gedər.

Bu istiqamətdə dövlət başçısı, təbii ki, yaddaşın vacibliyini vurğulayaraq diqqəti Qərbi Azərbaycan torpaqlarının öyrənilməsinə yönəltdi. Bir var, azərbaycanlı uzaq ellərdə yaşayıb yaradır, Vətəninin orda bir parçasına, simvoluna çevrilir. Bir də var tarixi torpaqlarımız taleyin hansısa hökmü ilə yadların tapdağında, bizsiz qalıb. Qarabağ torpaqlarına qayıdanda da şahidi olduq ki, torpaq öz sahibi olmayanda viran qalır. Zəngəzur, Göyçə, İrəvan da öz sahibinə qovuşmalıdır. Sadəcə, Prezidentin də fərqli zamanlarda dönə-dönə qeyd etdiyi kimi, sülh yolu ilə. Lakin bunun üçün əvvəlcə düşüncələr formalaşmalı, inamlı olmalıdır ki, qarşıdakını da inandıra bilsin. Dövlət başçısı qeyd edir ki, "Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır". Başqa sözlə desək, ərazinin, dövlətin tarixi düşüncənin tarixi ilə qoşa yaradılmalı və yazılmalıdır.

Özündə milli kimliyi, Vətəni ilə əlaqəsini, sevgisini müqəddəs keyfiyyət kimi qoruyan hər şəxs yaşadığı məkandan asılı olmadan Vətənin bir parçasıdır. Belə şəxslərin yazıb-yaratdığı da həmin torpaqların mədəniyyəti tarixi ilə yanaşı, Azərbaycanın öz mədəniyyət xəzinəsinə və tarixinə bir töhfə olur. Bu, tarixən də belə olub, bu gün də belədir. Məhz bu fakta diqqət yönəldən dövlət başçısı deyir: "Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq". Buna nümunə olaraq hazırda dünyanın ən fərqli istiqamətlərində yaşayıb yaratmış, eyni zamanda öz milli mənsubiyyətini qoruyub saxlayan, bununla fəxr edən azərbaycanlı alimləri, mütəfəkkirləri göstərmək olar. Əslində, bu, azərbaycanlı yaradıcı şəxslərin həm nadir istedadının, həm də düşdüyü şəraitin çətinliyindən asılı olmadan öz unikallığını, milli kimliyini qoruyub saxlaya bilməsinin göstəricidir. Əslində, bu, gənclər, xüsusilə öz Vətənində mənfi cəhətlər axtarıb, Qərbi ideallaşdıran şəxslər üçün bir xatırlatmadır və buna görə də, Prezidentin "biz öz tariximizi tədqiq və təbliğ etməliyik" deməsi Azərbaycanı daha dərindən, daha düzgün tanıdılmasının tələbidir.

### Son söz əvəzi

AMEA-nın yubileyində cənab İlham Əliyevin taleyüklü məruzəsində bütün məsələlər iki əsas xətt arasında təqdim edilirdi: birincisi, Azərbaycanın varlığının qorunmasına və inkişafına alimlərin də qoşulmasının, bu işə daha məsuliyyətli yanaşmasının, zəmanə ilə ayaqlaşmasının zərurəti və ikincisi, dövlətin bu işdə daim onların yanında olub, dəstək verməsidir. Tarixi çıxışından iki gün sonra isə Azərbaycan elminin inkişafında xidmətləri olan bir qrup alim cənab İlham Əliyev tərəfindən yüksək ad və mükafatlarla təltif edildi. Bu təltiflər Prezidentin Elmlər Akademiyasının fəaliyyətini daim diqqətdə saxladığının və lazımi məqamlarda dəstək verdiyinin ən böyük göstəricisi oldu. Elmlər Akademiyasının sağlam bir nüvəsi var və hər vətəndaşının Prezidenti olmaqla o, alimlərini də tanıyır və dəyərləndirir. Eyni zamanda bu təltiflər bir daha sübut etdi ki, cənab İlham Əliyev dediyi bütün sözləri, verdiyi bütün vədləri hər zaman yerinə yetirir.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü, professor***

# Hərbi gücümüz artır

## Yaxın gələcəkdə Azərbaycan şirkətləri hərbi təyinatlı modern məhsullar istehsal edəcəklər

Azərbaycanın hərbi sənayesi ölkənin müstəqilliyini və təhlükəsizliyini təmin etmək məqsədilə mühüm işlər görür. Yerli istehsalın artırılması, müasir müdafiə texnologiyalarının tətbiqi və xarici bazarda mövqeyin möhkəmləndirilməsi Azərbaycanın silah sənayesinin inkişafında əsas hədəflərdir. Bu inkişaf Azərbaycanın beynəlxalq aləmdəki gücünü artırmağa, regional və qlobal təhlükəsizliyə müsbət təsir göstərməyə xidmət edir. Gələcəkdə Azərbaycan silah sənayesindəki uğurlarını daha da çoxaltmaq və dünyadakı mövqeyini gücləndirmək niyyətindədir.

Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxış edən Prezident İlham Əliyev bu məsələyə toxunaraq bildirib ki, hazırda Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir. Eyni zamanda bu yaxınlarda dövlət bu sahəni özəl sektor üçün də açmışdır. Çünki bu istiqamətdə ən böyük uğurlar əldə etmiş ölkələrdə hərbi təyinatlı məhsullar məhz özəl şirkətlər tərəfindən istehsal olunur: "Ona görə biz də burada lisenziyaları verməklə özəl sektoru cəlb etmişik. Eyni zamanda mənim tərəfimdən də onlara çağırış olub və bu gün özəl şirkətlər artıq hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmağa başlamışlar. Deyə bilərəm ki, hələlik bu proses icra mərhələsindədir, amma yəqin ki, yaxın gələcəkdə bir çox Azərbaycan şirkətləri artıq dünya səviyyəli keyfiyyətli hərbi təyinatlı məhsullar istehsal edəcəklər".



Prezident vurğulayıb ki, dövlət xətti ilə bu istiqamətdə işlər aparılır və Azərbaycan öz hərbi imkanlarını artıq böyük dərəcədə yerli istehsal hesabına genişləndirir, öz tələbatımızı böyük dərəcədə ödəyirik. Artıq Azərbaycan bir çox ölkəyə hərbi təyinatlı məhsul ixrac edir və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, əfsuslar olsun ki, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu gün müəssisələrimiz bu istiqamətdə çox fəal işləyirlər.

Prezident çağırış edərək dövlət və özəl şirkətləri, eyni zamanda Azərbaycan alimlərini bu istiqamətdə birgə işləməyə dəvət edib.

Qeyd edək ki, 5 il öncə əldə etdiyimiz şanlı Zəfərimizdə Azərbaycan Silahlı Qüvvələrinin hərbi təchizatında öz sənaye istehsalımız da böyük üstünlük təşkil edib. Müharibədən sonra savaşı dəyərləndirən dünya birliyi Azərbaycanı ilk smart müharibə aparan dövlət kimi təqdim etdilər. Yəni bu, ilk savaş idi ki, pilotsuz uçuş aparatlarının tətbiqi həyata keçirilmişdi. Prezident də bu məsələyə toxundu və dedi ki, bunu müharibədə məhz Azərbaycan birinci tətbiq edib: "Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik. Burada da təbii ki, Azərbaycan elmi ictimaiyyəti üçün çox böyük fəaliyyət meydançası yaradılır".

Azərbaycanın silah sənayesinin ən mühüm inkişaf istiqamətlərindən biri də müasir müdafiə texnologiyalarına investisiya yatırılmasıdır. Azərbaycan hərbi sahədə yüksək texnologiyaların tətbiqini öz prioritetlərindən birinə çevirib. Bu məqsədlə müxtəlif dronlar, zərbə helikopterləri, raket sistemləri, eləcə də elektron müharibə vasitələri istehsal olunub.

Son illərdə Azərbaycanın silah sənayesinin inkişafı yalnız daxili bazarla məhdudlaşmır, həm də xarici bazarlarda müsbət nəticələr verir. Azərbaycan yerli istehsal etdiyi silah və hərbi texnikanın ixracını həyata keçirərək öz iqtisadiyyatını gücləndirməkdədir. Azərbaycanın silah ixracı xüsusilə də Orta Şərq və Şimali Afrika ölkələrinə artıb. Bu ölkələr Azərbaycanın yüksəkkeyfiyyətli silahlarını və hərbi texnika sahəsindəki təcrübəsini yüksək qiymətləndirirlər.

Ümumiyyətlə, Azərbaycanın silah sənayesinin gələcəyi çox böyük perspektivlərə malikdir. Hökumət hərbi sənayenin inkişafını yalnız müdafiə məqsədilə deyil, həm də iqtisadi inkişafın mühüm bir elementi kimi görür. Yaxın gələcəkdə daha çox yerli silah istehsalının artırılması, yeni texnologiyaların tətbiqi, eyni zamanda beynəlxalq bazarda Azərbaycanın silah sənayesinin daha da inkişaf etməsi gözlənilir.

Azərbaycan bu sahədə beynəlxalq əməkdaşlığa da böyük önəm verir. Silah və müdafiə sənayesinin inkişafında, həmçinin beynəlxalq bazarda Azərbaycanın mövqeyini gücləndirmək məqsədilə mühüm anlaşmalar və müqavilələr imzalanır. Bu, ölkənin təhlükəsizliyini təmin etməklə yanaşı, iqtisadiyyatına da yüksək töhfə verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Kiber məkanda insan hüquqlarına təhdidlər və onlara qarşı mübarizə



**Elmi-texniki tərəqqi və informasiya texnologiyalarının inkişafı insanların həyat və yaşayışını yaxşılaşdırmaq, onların müxtəlif resurslara çıxış imkanlarını artırmaq və bərabərləşdirmək, dövlət və cəmiyyətin idarə olunmasını təkmilləşdirmək və bu kimi bir çox məqsədlərə nail olmağa böyük töhfələr versə də, eyni zamanda bu tərəqqinin ən böyük nailiyyətlərindən olan internet şəbəkəsi və rəqəmsal texnologiyalar cəmiyyətimizə özü ilə yeni neqativ təzahürlər və təhdidlər gətirir.**

Nəticədə artıq tək real dünyada deyil, eyni zamanda kiber məkanda da təhlükəsizliyin təmin olunması dövlətləri və dünya ictimaiyyətini düşündürən ən ümdə məsələlərdən birinə çevrilib. Bu gün təhlükəsizlik konsepsiyalarında və strategiyalarında kiber təhlükəsizlik, kibercinayətkarlıqla mübarizə və kiber hücumların qarşısının alınması önəmli yer tutur.

Həyatın əksər sahələrində getdikcə daha mürəkkəb və bir-biri ilə əlaqəli kompüter sistemlərindən asılılıq artır ki, bu da kiber hücumlara qarşı bir növ həssaslıq yaradan və güclü müdafiə mexanizmləri tələb edən əsas amildir. Kiber hücum kompüter infrastrukturuna qarşı onun məzmununun konfidensiallığını, bütövlüyünü və ya mövcudluğunu pozan icazəsiz daxil olmadır. Bu hücumların fiziki zərər, iqtisadi itkilər, psixoloji zərər, nüfuza xələl gətirmə və bir çox digər fəsadları ola bilər. Kiber məkanda bu cür hücumların ən təsirli və pozucu bir təzahürü də onun insan hüquqlarına, o cümlədən şəxsi həyata və toxunulmazlıq hüququna, mülkiyyət hüququna və digər hüquq və azadlıqlara müdaxiləsidir. Kiber məkanda hücum zamanı istifadə olunan texnologiyaları hətta bəzən insan hüquqlarına qəsd edən kiçik və yüngül silah kateqoriyasına da aid edirlər.

İnternet şəbəkəsindən istifadənin genişlənməsi və rəqəmsal texnologiyaların yayılması nəticəsində insan hüquqları üçün yeni təhdidlər ortaya çıxıb. Yalnız dövlətləri deyil, eyni zamanda şəxsləri də hədəfə alan kiber hücumlar insan hüquqlarına həm birbaşa, həm də dolayı yolla qəsd edir. Bu yerdə bir məqamı qeyd etmək lazımdır ki, bəzən kiber hücumların qarşısının alınması və kiber təhlükəsizliyin təmin olunması adı altında həyata keçirilən müəyyən məhdudlaşdırıcı tədbirlərin özü də yekunda hüquq və azadlıqlara mənfi təsir göstərir. Yəni bu tədbirlərdən bəzən bir alət kimi sui-istifadə olunur.

Kiber hücumlar insan hüquqlarının geniş spektrinə təsir və qəsd edir. İlk növbədə qeyd olunmalıdır ki, insan hüquqlarına qarşı əksər qəsdetmə halları həm real, həm də virtual, yaxud kiber məkanda baş verə bilər. İnsan hüquqlarının müdafiəsi sahəsində ən ümdə beynəlxalq sənədlərdən biri olan İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası və ona əlavə protokollarda təsbit olunmuş hüquqların əksəriyyətinin kiber hücumlara məruz qalma riski müasir dünyamızda xeyli aktuallaşıb. Məsələn, konvensiyanın 2-ci maddəsində təsbit olunan yaşamaq hüququna kiber hücum nümunəsi kimi bir fakt: 2015-ci ildə kibertəhlükəsizlik üzrə məsləhətçi Kris Roberts ABŞ-nin Federal Təhqiqatlar Bürosuna etirafında təxminən 20 dəfə təyyarələrdəki kompüter sistemlərini "sındırdığını" və hətta uçuş zamanı təyyarənin mühərrikinə nəzarət edə bildiyini söyləmişdir. Konvensiyanın 8-ci maddəsində təsbit olunmuş daha bir hüquq - şəxsi həyata və ailə həyatına hörmət hüququ da ən çox kiber hücumlara məruz qalır. Bu gün dünyada müxtəlif məlumat bazalarına və daşıyıcılarına, elektron cihazlara icazəsiz daxil olaraq şəxsi və fərdi məlumatların "oğurlanması", qanunsuz məqsədlərlə istifadə edilməsinə çoxsaylı misallar gətirmək olar. Bu məlumatların ələ keçirilməsi bir sıra digər hüquqlara da qəsdlə nəticələnə bilər. Məsələn, şəxsin bank kartı ilə bağlı məlumatların ələ keçirilməsi ona məxsus vəsaitin oğurlanması, yəni onun mülkiyyət hüququnun pozulması ilə nəticələnir.

Konvensiyanın 10-cu maddəsində insanların fikir ifadə etmək azadlığı təsbit olunub. Bu hüquq həm real məkanlarda, yəni fiziki olaraq insanlar qarşısında dayanmaqla və ya hansısa məlumat yayım vasitələrindən istifadə edilməklə, eyni zamanda müasir dövr üçün ən səciyyəvi bir formada internet vasitəsilə kiber məkanda mövcud olan platforma və ya sosial şəbəkələr vasitəsilə həyata keçirilir. Bəzən bu platformalara və şəbəkələrə hücumlar edərək onları sıradan çıxarmaqla və onların əlçatanlığını məhdudlaşdırmaqla müvafiq hüququn realizəsinə mane olmaq mümkündür.



Bu konvensiya ilə yanaşı, kiber məkanda digər mötəbər beynəlxalq sənədlərlə qadağan edilən ayrı-seçkiliyi aşılayan əməllər də baş verir. "Kiber bullinq", "kiber irqçilik", "nifrət nitqi" kimi ifadələr yeni olsa da, artıq kiber məkanda bu cür davranışlar müxtəlif insan hüquqlarına təhdidlər yaradır. Kiber bullinq bir sıra insan hüquqlarına, o cümlədən fiziki və psixi sağlamlığın ən yüksək səviyyəsinə malik olmaq hüququ, əmək hüququ və ədalətli iş şəraiti hüququ, ifadə azadlığı və müdaxilə olmadan öz fikirlərinə sahib olmaq hüququna təsir edə bilər. Kiber irqçilik fərdlərin irqçi şərhlər yazması və ya xüsusi olaraq irqçi məqsəd üçün yaradılmış qrup səhifələrində iştirak etməsi şəklində ola bilər. Ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa çağırış edən milli, irqi və ya dini ədavətin hər hansı təbliğatı qanunla qadağan olunsa da, bəzən etnik, irqi, milli mənsubiyyətə və digər amillərə görə bir qrup insana qarşı zorakılıq aşılayanlar nifrət nitqlərini yaymaq üçün kibermərkandan da istifadə edirlər.

Kiber məkanda qəsd edilən hüquqlardan biri də müəlliflik hüququdur. Müəllif hesab edilən şəxsin və ya təşkilatın hər hansı bir əsərə, ixtiraya, sənaye kəşfinə, ideyaya, məhsula aid müəlliflik hüquqları ilə qorunan müstəsna hüquqlarının ələ keçirilməsi və onlardan icazəsiz istifadə halları real həyatla yanaşı, kiber məkanda da baş verir. Bu əməli törədənlər patentlər, ticarət nişanları, kommersiya sirləri, loqolar, simvollar və sairə barədə elektron məlumatlara icazəsiz olaraq daxil olur, yaxud onları dəyişdirir və onlardan öz məqsədləri üçün istifadə edirlər. Əqli mülkiyyət, müəlliflik hüququnun "oğurlanması" iqtisadi itkilər, işgüzar nüfuza xələl gətirmə, müştəri inamının itməsi kimi fəsadlar verə bilər.

Kiber məkan müasir dövrdə bir sıra əsas insan hüquqlarına qəsd etməklə aktual olan insan alveri kimi neqativ təzahürlər üçün köməkçi bir vasitəyə çevrilmişdir. Kiber məkan insan alveri qurbanlarının ilk növbədə cəlb edilməsi, eyni zamanda bu əməllərlə məşğul olanların şəbəkə yaratması, məlumatların mübadiləsi və təşviq etmə, əldə olunan mənfəətin ötürülməsi və digər məqsədlər üçün də istifadə olunur. Uşaqların və onların əməyinin istismarı, uşaq pornoqrafiyası, uşaqları özünə qəsd etməyə yönələn oyunlar və saytlar kiber məkanda onların yaşamaq hüququ da daxil olmaqla, müxtəlif hüquqlarına qəsd edir. Sosial şəbəkələrdə geniş yayılmış və daha çox yeniyetmələri hədəfə alan "ölüm sektası" adlanan bu oyunlarla bağlı ilk təhlükəli dalğa 2015-ci ildə Rusiyada meydana gəlib. Ötən il Rusiyada geniş yayılmış məktəbli intiharlarının əksəriyyətinin səbəbi də elə virtual aləmlə əlaqələndirilib.

Amma kiber hücumlar bunlarla da məhdudlaşmır. Rəqəmsal texnologiyalar inkişaf etdikcə və həyatın bütün sahələrinə inteqrə olunduqca, onların həm qəsd etdiyi və risk altına aldığı insan hüquqlarının sayı, həm də bu hüquqlara qəsd etmə formaları artır.

Beləliklə, kiber hücumlar insan hüquqlarına ciddi təhdid yaradır. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası qeyd etmişdir ki, insanların real həyatda malik olduqları hüquqlar virtual, yəni kiber məkanda da qorunmalıdır. Bunun üçün dövlətlərə müvafiq sahəni tənzimləyən, kiber məkanda insan hüquqlarına təhdidlərin qarşısının alınması və kiber hücumlarla mübarizə üzrə qanunların qəbul edilməsi və qanunvericiliyə əlavə və düzəlişlərin edilməsi, bu istiqamətdə həyata keçirilən fəaliyyətin effektiv və sistematik şəkildə aparılması üçün strategiyaların və fəaliyyət planlarının hazırlanması və həyata keçirilməsi, zəruri institutsional dəyişikliklərin edilməsi, yəni bu sahədə ixtisaslaşdırılmış qurumların təsis olunması və mütəxəssislərin yetişdirilməsi tövsiyə olunur. Kiber hücumların qarşısının alınması və təqibi üçün bir dövlətin ərazisi hüdudlarında həyata keçirilən fəaliyyətin o qədər də təsirli olmayacağını, bunun üçün beynəlxalq səviyyədə əməkdaşlığın da vacibliyini vurğulayan BMT və digər beynəlxalq qurumlar rəqəmsal təhlükəsizlik məsələlərini insan hüquqları ilə əlaqələndirərək dövlətləri kibertəhlükəsizlik sahəsində hüquqi tənzimləmələr aparmağa və qlobal səviyyədə səyləri artırmağa çağırır.

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, yalnız fərdlərin deyil, həm də cəmiyyətin ümumi təhlükəsizliyinə təhdid kimi qəbul edilən kiber hücumlarla mübarizə kompleks bir yanaşma tələb edir və bu tədbirlər həmin hücumların qarşısını almaqla yanaşı, insan hüquqlarına xələl gətirməmək şərtilə həyata keçirilməlidir. Yeri gəlmişkən, qeyd edək ki, Budapeşt Konvensiyası kimi də məlum olan Kibercinayətkarlıqla mübarizə haqqında konvensiya bu sahədə dövlətlərin əməkdaşlıq etməsi üçün əsas platformalardan biri hesab olunur. Konvensiyada qeyd edilir ki, iştirakçı tərəflər kibercinayətkarlıqla mübarizə üzrə razılaşdırdıqları tədbirləri hüquq-mühafizə orqanlarının maraqları və hər kəsin müdaxilə olmadan öz fikrinə sahib olmaq hüququnu, habelə ifadə azadlığını, o cümlədən sərhədlərdən asılı olmayaraq, bütün növ məlumat və ideyaları axtarmaq, almaq və yaymaq azadlığını və şəxsi həyatın toxunulmazlığına hörmətlə bağlı hüquqları bir daha bəyan edən 1950-ci il İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasında, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda və digər beynəlxalq müqavilələrdə təsbit edilmiş fundamental insan hüquqlarına hörmət arasında düzgün balans təmin olunmaq şərtilə həyata keçirməlidirlər.

Digər dövlətlər kimi, Azərbaycan da kiber hücumlara və kibercinayətlərə qarşı mübarizədə Budapeşt Konvensiyası və digər beynəlxalq müqavilələr əsasında qanunvericiliyin gücləndirilməsi məqsədilə addımlar atır. Prezidentin 28 avqust 2023-cü il tarixli sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" da digər məqsədlərlə yanaşı, konstitusiya ilə təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməsinə daha əlverişli şəraitin yaradılmasına xidmət edir.

*Vüsalə MURADXANLI,*
*Azərbaycan Uşaq Fondunun direktoru, vəkil*

# "Azexport"un əlaqələri genişlənir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport"un vasitəçiliyi ilə qeyri-neft məhsullarının xarici bazarlarda satışının həcmi artır, coğrafiyası genişlənir. "Azexport" həmçinin analoji qurumlarla əlaqələrini genişləndirir.

Belə əlaqələr məhsullarımızın tanınmasında mühüm rol oynayır. Portalın təşkilatçılığı ilə Belarusun Azərbaycana səfər edən topdansatış şəbəkəsinin direktoru Andrey Drozden bildirib ki, rəhbəri olduğu şirkət İspaniya, Türkiyə, Misir, Özbəkistan kimi ölkələrdən məhsul idxal edir. Onun sözlərinə görə, Azərbaycan məhsullarının keyfiyyəti maraqlarına səbəb olub. "Xüsusilə sitrus məhsulları və xurma çox dadlı və keyfiyyətlidir. Hesab edirəm ki, Azərbaycanda yetişdirilən sitrus məhsulları dünya bazarında olan məhsullar sırasında dadına və keyfiyyətinə görə ilk üçlükdə yer alır. "Azexport" portalının dəstəyi ilə baş tutan bu səfər və imzalanan müqavilələr hələ başlanğıcdır. Biz artıq növbəti həftələrdə qənnadı və konservləşdirilmiş məhsulların istehsalı ilə tanış olmaq və sifarişləri təyin etmək üçün səfərləri planlamağa başlamışıq", - deyə A. Drozden bildirib.

Belaruslu qonaqlar səfər çərçivəsində həmçinin Lənkəran, Astara, Göyçay və Hacıqabul rayonlarında yerli sahibkarlarla görüşlər keçirib, məhsulların yetişdirildiyi bağlarda və saxlama kameralarında yaradılan müasir imkanlarla tanış olublar.

"Azexport"dan verilən məlumata görə, portal indiyə qədər "Gələn Alıcı Missiyası" (İncoming Buyer Mission) proqramı çərçivəsində ABŞ, Türkiyə, Rusiya, Kanada və Avropa İttifaqı ölkələrindən Azərbaycana gələn şirkət nümayəndələrini yerli sahibkarlar və infrasturkturla tanış və yerli məhsulların həmin ölkələrdə tanıdılmasını təşviq edib.

Məlum olduğu kimi, Avropa bazarına daxil olmaq çox çətindir. Xüsusən Aİ ölkələrində məhsulun keyfiyyətinə tələblər yüksəkdir və o səbəbdən ixrac məhsulları müəyyən prosedurlardan keçməlidir. Almaniyanın məşhur "Hannover Impuls" şirkəti "Azexport" portalının dəstəyi ilə Azərbaycan sahibkarlarına belə bir imkan yaratmaq istəyir. Şirkətin beynəlxalq işlər üzrə direktoru Peter Ayzenşmin təmsil etdiyi qurumun dövlət təşkilatı kimi əsas fəaliyyətinin Almaniya və ümumilikdə Avropa bazarına çıxmaq istəyən sahibkarları dəstəkləmək olduğunu bildirib. O, "Hannover Impuls"un əsas məqsədinin beynəlxalq ticarət əlaqələrinin qurulmasında təkanverici rol oynamaq istədiyini, eyni zamanda "Azexport"un "Alibaba" və "Amazon" platformaları ilə əməkdaşlıq prinsiplərini qabaqcıl və səmərəli hesab etdiyini, bu təcrübədən öyrəniləcək maraqlı məqamların olduğunu vurğulayıb.

Tərəflər Azərbaycan mallarının Almaniya və Avropada yerləşən satış şəbəkələri və potensial alıcılara çıxarılması istiqamətində birgə fəaliyyət və qarşılıqlı təcrübə mübadiləsi aparılması barədə razılığa gəliblər.

Xatırladaq ki, "Hannover Impuls" Hannover şəhəri və regionu əhatə edən iqtisadi inkişaf agentliyidir. Təşkilat sahibkarlıq təşəbbüslərini dəstəkləyir, startapların inkişafına kömək edir və mövcud şirkətlərin innovativ gücünü artırmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

**14 Noyabr Ümumdünya Diabet Günüdür**

# Şirin mərəzin fəsadları

Şəkərli diabet hər il dünyada təxminən bir milyon insanın ölümünə səbəb olur. Müalicə olunmadıqda ciddi fəsadlara yol açan bu xəstəlik, eyni zamanda digər xəstəliklərin gedişini də ağırlaşdırır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2006-cı ildə qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib.

1991-ci ildən etibarən Ümumdünya Səhiyyə Təşkilatı və Beynəlxalq Diabet Federasiyasının təşəbbüsü ilə noyabrın 14-ü Ümumdünya Diabetlə Mübarizə Günü kimi qeyd edilir. 2006-cı ildə isə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası ictimaiyyəti xəstəliyin yaranma səbəbləri, əlamətləri, fəsadları, müalicəsi və profilaktikası barədə məlumatlandırmaq, inkişafının qarşısının alınması yollarını araşdırmaq məqsədilə xüsusi qətnamə qəbul edib.



## İnsulinin kəşfi milyonlarla insanın həyatını xilas etdi

Şəkərli diabet sağalmayan xəstəliklər sırasında yer alsa da, insulinin hesabına onu nəzarətdə saxlamaq mümkündür. 1922-ci ilin yanvarında kanadalı həkim Frederik Bantinq ilk dəfə insulin inyeksiyasını şəkərli diabetin ağır formasından əziyyət çəkən 14 yaşlı oğlana tətbiq edərək onun həyatını xilas edib. Bantinq bu ixtirasına görə patent hüququnu Toronto Universitetinə bağışlayıb. Elə həmin ilin sonlarında yeni preparat bazara çıxarılıb.

Frederik Bantinq və Con Makleodun birgə ixtira etdikləri bu hormon milyonlarla diabet xəstəsinin həyatını xilas edib. 1923-cü ildə onlar biokimya və təbabət sahəsində Nobel mükafatına layiq görülüblər.

Hazırda şəkərli diabet ateroskleroz və xərçənglə yanaşı, dünyada ən çox əlilliyə və ölümə səbəb olan ilk üç xəstəlikdən biri hesab olunur. ÜST-nin hesablamalarına görə, diabet dünya üzrə ölüm hallarını 2-3 dəfə artırır. Xəstəliyə tutulanların sayı hər il yüksəlməkdədir. Risk qrupuna əsasən, 24-60 yaş arası insanlar daxildir.

Azərbaycanda da şəkərli diabetdən əziyyət çəkənlər az deyil. Təəssüf ki, bu rəqəm ildən-ilə artır. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il ölkə ərazisində ilk dəfə diabet diaqnozu qoyulmuş xəstələrin sayı 33533 nəfərə çatıb. Onlardan 1134 nəfəri insulindən asılı olan, 32399 nəfəri isə insulindən asılı olmayan şəkərli diabet xəstəsidir. 2023-cü ildə bu rəqəm 30500 nəfər olub. Ümumilikdə tibb müəssisələrində qeydiyyatda olan şəkər xəstələrinin sayı 2024-cü il üzrə 423523 nəfərdir. 2023-cü ildə bu rəqəm 385179 olub.

## Tam müalicəsi olmasa da, onu idarə etmək mümkündür

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Kliniki Tibbi Mərkəzin həkim-endokrinoloqu Həcər Kazımovanın sözlərinə görə, şəkərli diabet orqanizmdə insulinin mədəaltı vəzi tərəfindən qismən və ya tamamilə ifraz olunmaması nəticəsində qanda şəkərin miqdarının yüksəlməsidir: "Dövrümüzün ən çox rast gəlinən xəstəliklərindən olan diabet xroniki insulin çatışmazlığı ilə əlaqədardır. Xəstəliyin şəkərli diabet tip 1, şəkərli diabet tip 2, hamiləlik (hestasion) diabeti və qeyri-spesifik növləri var. Qanda şəkərin miqdarının artması xəstəliyin əsas göstəricisidir. Tez-tez sidiyə çıxmaq, ağızda quruluq, həddindən artıq susuzluq, normadan çox yemə və doymama hissi diabetin əsas əlamətləridir. Bundan başqa, halsızlıq, bulanıq görmə, səbəbsiz çəki itkisi, dəridə quruluq və ayaqlarda keylik də müşahidə oluna bilər. Bu əlamətləri özündə müşahidə etdikdə həkimə müraciət etmək lazımdır. Nəzarət olunmadıqda, şəkərin uzunmüddətli yüksəkliyi gözlərə, böyrəklərə və damar sisteminə zərər verir. Bu, xüsusilə ayaqlarda keyləşmə, yanma və həssaslığın itməsi ilə özünü göstərir".

Həkim-endokrinoloq qeyd edib ki, şəkərli diabetin tam müalicəsi olmasa da, onu idarə etmək mümkündür. Ailəsində bu xəstəlik olan insanlar isə daha diqqətli olmalı, mütəmadi həkim müayinəsindən keçməlidirlər. Tip 1 diabet daha çox uşaqlarda və gənclərdə müşahidə olunur və müalicə yalnız insulin terapiyası ilə aparılır. Tip 2 isə, adətən, orta yaşdan sonra meydana çıxır və çox vaxt genetik meyillə əlaqələndirilir. Bu zaman mədəaltı vəzi insulin ifrazını tam yerinə yetirə bilmir. Adətən, antidiabetik preparatlarla müalicə edilir. Hestasion diabet isə hamiləlik zamanı aşkarlanır və yalnız insulin terapiyası ilə müalicə olunur.

## Şəkəri nəzarətdə saxlamağın yolu düzgün pəhriz və aktiv həyat tərzidir

Qanda şəkərin normal səviyyədə qalması üçün ilk addım düzgün qidalanmadır. Həcər Kazımova bildirib ki, bu, müalicənin 60-70 faizini təşkil edir: "Qalan hissə isə insulin preparatlarının payına düşür. Xəstələr yağ və karbohidrat qəbuluna diqqət etməlidirlər, lakin onları tamamilə rasiondan çıxarmaq da doğru deyil. Sadəcə miqdar azaldılmalı və balanslı şəkildə qəbul olunmalıdır. Diabet xəstələri rafinə edilmiş şəkər məhsullarından uzaq durmalı, meyvələri isə normada və günə bölərək qəbul etməlidirlər. Fruktoza və saxaroza tərkibli qidalar məsləhət görülmür, əvəzində stevia kimi təbii dadlandırıcılar istifadə oluna bilər, lakin onlar da hər gün və çox miqdarda qəbul edilməməlidir.

"Qanda şəkəri normada saxlamaqda fiziki aktivliyin rolu böyükdür. Diabet xəstələri gün ərzində, xüsusən axşam saatlarında 7-8 km piyada gəzintiyə çıxmalıdırlar. Gəzintidən sonra qida qəbul etmək olmaz. Ayaqqabı seçiminə də diqqət yetirmək vacibdir. Dar, sıxan və nazik altlıqlı ayaqqabılar ayaq yaralarına və infeksiyalara səbəb ola bilər. Buna görə də diabetli şəxslərə yalnız rahat, yumşaq və təbii materialdan hazırlanmış ayaqqabı geyinmək tövsiyə olunur. Diabet xəstələri dərman qəbuluna da ciddi yanaşmalıdırlar. Heç bir halda özbaşına dərman qəbulunu dayandırmaq, dozanı dəyişmək və ya müalicəni pozmaq olmaz. Bu, ciddi fəsadlara gətirib çıxara bilər. Bu xəstəliklə yaşamaq mümkündür, əsas məsələ onu idarə etməyi bacarmaqdır", - deyə həkim-endokrinoloq vurğulayıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ermənistan vətəndaşlarının məhkəməsində təqsirləndirilən şəxslərin cəzalandırılmasına dair prokurorların təklifləri səsləndirilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 13-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların ittiham çıxışı ilə davam etdirilib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli çıxış edərək təqsirləndirilən şəxslərə qarşı irəli sürülmüş ittihamlar üzrə cinayət əməllərinin tövsifinə münasibət bildirib.

O qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının suveren ərazilərinin işğal edildiyini, bununla da Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibə apardığını təsdiqləyib.

İttiham çıxışında göstərilib ki, Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzkar müharibə aktiv hərbi əməliyyatların aparılmadığı dövrdə belə, faktiki olaraq dayandırılmayıb.

Təcavüzkar müharibənin gedişində Ermənistan silahlı qüvvələri atəşkəsi dəfələrlə pozmaqla Azərbaycan Respublikası ərazisində qanuni fəaliyyət göstərən onun Silahlı Qüvvələrinin üzvlərini, mülki şəxsləri, onların əmlaklarını, mülki təyinatlı dövlət obyektləri, dini, təhsil, elm, tibb obyektlərini, xəstə və yaralıların yerləşdiyi yerləri, habelə mühüm strateji əhəmiyyətə malik obyektləri, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəmərini hücum obyektinə çevirib.

Habelə bildirilib ki, Ermənistan silahlı qüvvələri tərəfindən verilən işgəncələrin sistematik xarakter daşıması və geniş coğrafiyada yayılması işgəncənin tətbiqinin Ermənistan dövlətinin siyasətini əks etdirdiyini sübut edir.

Vurğulanıb ki, Cenevrə Konvensiyalarına I Əlavə Protokol "işğal edən dövlətin öz vətəndaşlarının bir hissəsini işğal etdiyi əraziyə köçürməsini" cinayət sayıb. Qeyd edilib ki, məhkəmə istintaqı zamanı təqsirləndirilən şəxslər Arayik Harutyunyan, Arkadi Qukasyan və Bako Sahakyan ifadələrində Azərbaycanın işğal altında olan bölgələrinə, xüsusən də Laçın rayonuna Ermənistandan əhalinin köçürüldüyünü təsdiqləyiblər.

Eyni zamanda bu faktlar məhkəmə istintaqında tədqiq edilmiş məktublar, erməni mənbələrin məlumatları və internet informasiya ehtiyatında olan məlumatlara əsasən təsdiq olunub.

Vurğulanıb ki, Ermənistanın hərbi təcavüzü yalnız Azərbaycan Silahlı Qüvvələrinin üzvlərinə yönəlməyib, eyni zamanda ən böyük şəhər və rayonlarından olan Gəncə, Bərdə, Ağcabədi, Yevlax, Mingəçevir, Zərdab, Kürdəmir, Qəbələ və sair kimi əraziləri hücum obyekti kimi müəyyənləşdirib.

Beləliklə də məhkəmədə tədqiq olunan sübutlarla təsdiq olunub ki, Ermənistan Azərbaycanın suveren ərazilərini işğal edib, Azərbaycana hərbi təcavüz zamanı, eləcə də ondan sonrakı dövrdə sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və çoxlu sayda digər xüsusilə ağır cinayətlər törədib.

Daha sonra baş prokurorun böyük köməkçisi Vüsal Əliyev və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov çıxış edərək təqsirləndirilən şəxslərin ittiham olunduqları hər bir cinayət əməlinə görə təyin edilməli cəzaya dair dövlət ittihamını müdafiə edən prokurorların təkliflərini səsləndirib.

Çıxış zamanı həmçinin təqsirləndirilən şəxslərə qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndlərin çıxarılması, irəli sürülmüş bəzi ittihamlarla müqayisədə təqsirləndirilən şəxslərin əməllərinin daha yüngül məsuliyyət nəzərdə tutan cinayət qanununun norması ilə tövsif edilməsi məhkəməyə təklif edilib.

Vurğulanıb ki, təqsirləndirilən Arkadi Qukasyanın, Bako Sahakyanın və Madat Babayanın ömürlük azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutan cinayətlərin törədilməsində ittiham olunmalarına və həmin ittihamların məhkəmə istintaqı zamanı sübuta yetirilməsinə baxmayaraq yekun məhkəmə qərarı, yəni hökm çıxarılanadək həmin təqsirləndirilən şəxslər 65 yaşına çatdıqları üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin tələblərinə əsasən onlara ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilə bilməz.

Təklif olunub ki, Harutyunyan Arayik Vladimiri Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il oktyabrın 3-dən hesablansın.

Mnatsakanyan Levon Henrixi ilə bağlı təklif edilib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 29-dan hesablansın.

Təklif edilib ki, Manukyan David Azati Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 27-dən hesablansın.

İşxanyan Davit Rubeni barəsində təklifdə qeyd olunub ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlət xadiminin həyatına sui-qəsd, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan 2023-cü il oktyabrın 3-dən hesablansın.

Babayan David Klimini barədə təklif edilib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq



ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 28-dən hesablansın.

Təklif olunub ki, Qukasyan (Ğukasyan) Arkadi Arşavir Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlət xadiminin həyatına sui-qəsd, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il oktyabrın 3-dən hesablansın.

Sahakyan Bako Sahaki barəsində təklif edilib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlət xadiminin həyatına sui-qəsd, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il oktyabrın 3-dən hesablansın.

Təklif olunub ki, Babayan Madat Arakeli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, müharibə qanunlarını və adətlərini pozma, beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, dövlət xadiminin həyatına sui-qəsd, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 21-dən hesablansın.

Paşayan Melikset Vladimiri barəsində təklifdə qeyd olunub ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 21-dən hesablansın.

Təklif edilib ki, Martirosyan Qarik Qriqori Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 19 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 21-dən hesablansın.

Allahverdiyan Davit Nelsoniyə dair təklifdə göstərilib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 18 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 21-dən hesablansın.

Balayan Levon Romiki barədə təklifdə bildirilib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 17 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 21-dən hesablansın.

Təklif edilib ki, Beqlaryan Vasili İvani Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məcburi köçürmə, təqib, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin. Cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 26-dan hesablansın.

Stepanyan Qurgen Homerosi barədə təklifdə deyilib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, əhalini məcburi köçürmə, təqib, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin. Cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 21-dən hesablansın.

Təklif edildi ki, Qazaryan Erik Roberti Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məcburi köçürmə, təqib, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinməklə qəti olaraq 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin. Cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin. Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 27-dən hesablansın.

Bundan başqa, cinayət işi üzrə maddi sübutlar barədə Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin tələblərinə uyğun şəkildə qərar qəbul edilməsi məhkəmədən xahiş olunub.

Dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxslərin hər biri barəsində seçilmiş qətimkan tədbirinin hökm qanuni qüvvəyə minənədək dəyişdirilməməsini məhkəmədən xahiş ediblər.

Məhkəmədə zərərçəkmişlərin nümayəndələri də təqsirləndirilən şəxslərə qarşı irəli sürülən ittihamların bir ilə yaxın müddətdə davam edən məhkəmə istintaqında tədqiq olunan sübutlar, araşdırılmış materiallar, dindirilmiş şahid və zərərçəkmişlərin ifadələri, habelə ekspertiza rəyləri və digər dəlillərlə sübuta yetirildiyini bildiriblər.

Zərərçəkmişlərin nümayəndələri dövlət ittihamını müdafiə edən prokurorların cəzaya dair təklifləri ilə razı olduqlarını və buna uyğun hökm çıxarılmasını məhkəmə kollegiyasından xahiş ediblər.

Məhkəmə prosesi noyabrın 27-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Robert Köçəryan, Serj Sarkisyan, Vazgen Manukyan, Vazgen Sarkisyan, Samvel Babayan, Vitali Balasanyan, Zori Balayan, Seyran Ohanyan, Arşavir Qaramyan, Monte Melkonyan və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 nəfər erməniəsilli təqsirləndirilən şəxs ittiham edilir.



# Mədəniyyət



● Kino xadimləri

# Ən böyük qazancı sevgi və alqışlardır

Sənətin xalqımıza tanıtdığı, sevdirdiyi və yaşatdığı aktrisalardan biri də Azərbaycan kinosunun görkəmli nümayəndəsi Xalq artisti, Prezident təqaüdçüsü Elmira Şabanovadır. Tanınmış aktrisa tamaşaçıların bu gün də böyük sevgi və maraqla baxdıqları "Səhər", "Ötən ilin son gecəsi", "Qəm pəncərəsi", "Gecə qatarında qətl", "Gəmi saatının sirri", "Əlvida, cənub şəhəri", "İçərişəhər", "Ağabəyovlar", "Gəlinlər" və başqa bədii filmlərdə, seriallarda, tamaşalarda bir-birindən fərqli müxtəlif xarakterli, lirik-psixoloji obrazlar yaratmışdır. Yaratdığı bu obrazlar ona böyük şöhrət və xalq məhəbbəti qazandırmışdır.



Xalq artisti Elmira Şabanova 1940-cı il noyabr ayının 1-də Bakıda dünyaya göz açıb. Atası Balahüseyn kişi müxtəlif vəzifələrdə çalışıb, SSRİ Ali Sovetinin deputatı olub. Gələcəyin böyük aktrisası 1958-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) əvvəlcə aktyorluq, sonra Rejissorluq fakültəsində oxuyub. 1962-ci ildə təhsilini uğurla başa vurub. Üç il Azərbaycan Dövlət Rus Dram Teatrında çalışıb. Uzun müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim işləyib, gələcəyin aktyorlarının, rejissorlarının yetişməsində böyük əmək sərf edib.

Elmira Şabanova 1-ci kursda oxuyarkən rejissor Rüfət Şabanovla ailə qurur. Aktrisa 2 filmdə çəkildikdən sonra həyat yoldaşı ona qadağa qoyur. Buna görə də Elmira xanım 1977-ci ilə kimi kinoya çəkilmir. Həmin günləri aktrisa belə xatırlayır: "Əvvəl atam, sonra da həyat yoldaşım mənə qadağa qoydular. Mən həyat yoldaşımı başa düşürdüm. Bizim insanlarımız bir az başqa cürdürlər. O bilirdi ki, mənim istedadım var. Amma həmişə deyirdi ki, Elmira, sevgi filmində bircə rol ifa etsən, o dəqiqə şayiə yayılacaq ki, sən mənə xəyanət edirsən. Ona görə də mən 40 yaşa qədər ancaq pedaqoji fəaliyyətlə məşğul oldum. Bundan sonra isə rejissorlar mənə ancaq ana rolları verdilər".

Tələbəlik illərində sənətin sirlərini görkəmli teatr rejissoru Tofiq Kazımovdan öyrənən Elmira Şabanavonın kinoya gəlişi də sənət müəlliminin istəyi ilə reallaşıb. İlk kino debütü 1959-cu ildə İmran Qasımovun ssenarisi əsasında rejissor Tofiq Tağızadənin çəkdiyi "Əsl dost" filmində olub. Filmdəki hadisələr Xəzər dənizinin sahilindəki balıqçılıq qəsəbələrinin birində cərəyan edir. E.Şabanova filmdə Leyla rolunu oynayır. 1960-cı ildə Mehdi Hüseynin eyniadlı romanının motivləri əsasında rejissor Ağarza Quliyevin çəkdiyi "Səhər" filmində isə aktrisa Sevda obrazını yaradıb. Böyük bacarıq və istedadla yaratdığı obraz ona böyük tamaşaçı sevgisi qazandırıb.

Aktrisanın kinoya növbəti qayıdışı 1977-ci ildə "Bədbəxtliyin astanasında" qısametrajlı bədii filminin çəkilməsi ilə



reallaşır. Ümumiyyətlə, Elmira Şabanova "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi 30-a yaxın bədii filmdə müxtəlif xarakterli obrazları canlandırıb. Bu filmlərdə yaratdığı obrazlar onun yaradıcılığında mühüm yer tutub.

1983-cü ildə Rüstəm İbrahimbəyovun ssenarisi əsasında rejissor Rüfət Şabanov "Gəmi saatının sirri" filmini çəkir. Əsas süjet xəttini köhnə gəmi saatı və qiymətli xəzinənin axtarışı ilə əlaqədar məktəbli oğlanın başına gələn əhvalatlar təşkil edən filmdə aktrisa Alikin anası rolunu oynayır.

1986-cı ildə yazıçı, dramaturq Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları və "Danabaş kəndinin müəllimi" əsərləri əsasında yazılan ssenariyə uyğun yazıçı Anar "Qəm pəncərəsi" filmini çəkir. Filmdə Cəlil Məmmədquluzadənin uşaqlıq dövründə baş verən hadisələr lentə alınır. Elmira xanım həmin filmdə C.Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanımın obrazını canlandırır.

Janr baxımından fərqli filmlərdə bir-birindən maraqlı rollar oynayan aktrisa deyir ki, teatr, kino, televiziya təbliğat vasitələri olduğundan insanlara örnək olmalıdır: "Kino dedikdə hər şey vəhdət təşkil etməlidir. Rejissor işi, operator işi, musiqi və s. hamısı bir-birini tamamlamalıdır. Digər tərəfdən, kinonu anlamağın, hiss etməyin əsaslarından biri də ona geniş ekranda, kinoteatrda baxmaqdan ibarətdir. Kino maqnit kimi ekrandan tamaşaçının fikirlərini özünə çəkməlidir. Kino tərbiyəvi əhəmiyyət daşıyır, insanlara necə yaşamağı, necə davranmağı öyrədir".

Şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında Ermənistan üzərində qələbə çalmasından, 30 ilə yaxın ermənilərin işğalında qalmış Qarabağın və başqa ərazilərimizin azad olunmasından sevinən görkəmli aktrisa Elmira Şabanova deyib:

- Yaxşı ki, qələbə çaldıq. Niyyətimiz nə idisə, o da həyata keçdi. Bu gün qalib xalqıq. Tarixi hər birimiz yaşadıq, gördük. Bu günlərin qiymətini bilməliyik. Xalqımız istedadlı xalqdır. Bizim gənclərə böyük ümid bəsləyirəm. Hər zaman məqsədlərinə çatmağa çalışsınlar. Biz də baxıb, sevinək. Kino sahəsini inkişaf etdirmələrini istəyirəm. Çünki kino respublikanın güzgüsüdür.

Kino tədqiqatçısı, Əməkdar incəsənət xadimi Aydın Kazımzadənin "Mənalı ömrün hekayəti" adlı kitabı Elmira Şabanovaya və onun kinematoqrafçılar ailəsinə həsr olunub. Aktrisanın ömür və yaradıcılıq yolu, pedaqoji fəaliyyəti, ailəsində sənətini davam etdirənlər haqqında ətraflı söz açan müəllif sənədli film təəssüratı yaradan bir iş ortaya qoyub. Kitabda yer alan çoxsaylı fotolar onu daha da dolğun edib.

Son illər Elmira xanım tamaşaçı qarşısına çıxmaq istəmir. Bu, aktrisanı sevən, onu görmək istəyən tamaşaçılar üçün nigarançılıq yaradır. Aydın Kazımzadə məhz bu amilləri nəzərə alaraq görkəmli aktrisa haqqında kitab yazmaq qərarına gəlib. Aydın müəllimin dediyinə görə, Elmira xanım əvvəlcə haqqında kitabın yazılmasını istəməyib. Sonra böyük çətinliklə onu razı salmaq mümkün olub. Kitab yazılandan sonra Elmira xanım sevinərək "Nə yaxşı ki, mən bu kitabı görə bildim" deyib.

Görkəmli aktrisa Elmira Şabanovanın incəsənətimizin, mədəniyyətimizin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Elmira xanım 2000-ci ildə Əməkdar, 2006-cı ildə Xalq artisti fəxri adlarına layiq görülüb. 2003-cü ildən isə Prezident təqaüdçüsüdür.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Sənət dünyası

# Bənzərsiz rolları ilə tamaşaçı rəğbətini qazanmışdır

Həyatda da, səhnədə də hər zaman özü kimi olmaq istəyib. Buna nail də olub. Xalq artisti Zərnigar Ağakişiyevanın qismətinə düşən yetmiş iki illik ömrün sevincindən kədəri, qüssəsi çox olsa da, həyatının ilk çağlarından problemlərlə, maneələrlə qarşılaşsa da, heç zaman gileyini, şikayətini dilə gətirməyib.



## Tamaşaçılarından ilham alan aktrisa

Zərnigar Ağakişiyeva teatrda da, kinoda da heç bir aktrisanın ifa tərzini yamsılamayıb, təkrarlamayıb. İstedadlı aktrisa ona tapşırılan hər bir rolu özünəməxsus aktyorluq məharəti ilə təqdim edib. Zərnigar Ağakişiyeva sənət həyatında ilham aldığını dediyi tamaşaçıları tərəfindən sevilib, hər çıxışı alqışlarla qarşılanıb...

O, 1945-ci il noyabrın 6-da Quba rayonunun Rustov kəndində dünyaya göz açıb. Anası Səadət xanımın birinci həyat yoldaşı müharibədə həlak olub. Zərnigar xanım onun ikinci evliliyindən dünyaya gəlib. Zərnigar xanımın beş yaşı olanda ailəlikcə Quba rayon mərkəzinə köçüblər.

On iki yaşınadək soyadı Güləliyeva olub. Güləli babasının adı idi. Zərnigar xanım on iki yaşında atasının babası Ağakişinin adını özünə soyad götürmək üçün icazə alıb. Beləliklə, Güləliyeva soyadı ilə başladığı orta məktəbi Ağakişiyeva soyadı ilə bitirib.

Gələcəyin aktrisası paytaxta gəlib. Bakıda Ticarət-Kooperativ Texnikumunu və Moskvanın Kooperativ Texnikumunun nəzdindəki reklam işi üzrə dekorçu-rəssam kurslarını bitirib. Ancaq teatra, səhnəyə vurğunluğu onu M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyoru fakültəsinə aparıb. Bu təhsil ocağında ali təhsilini 1972-ci ildə başa vurub.

Təhsilini bitirdikdən sonra Zərnigar Ağakişiyeva bir müddət Tədris Teatrında aktrisa kimi çalışıb. Özü bu barədə deyib: "O vaxt İncəsənət İnstitutunun tələbələrinin fəaliyyəti Tədris Teatrında başlayırdı. Mən də orada bir çox tamaşalarda iştirak etmişəm. "Aydın", "Qırmızı yaylıqlı qovağım mənim" və diplom işim olan "Günahsız müqəssirlər" tamaşalarında maraqlı rollarım var idi".

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində ilk rolunu isə rejissor Əşrəf Quliyevin dəvəti ilə oynayıb. 1973-cü il mayın 19-da nümayiş olunan Aleksandr Ostrovskinin "Müdriklər" dramında Mamayeva rolunda çıxış edib. Həmin çıxışını Zərnigar Ağakişiyeva belə xatırlayıb: "Ostrovskinin "Müdriklər" pyesində Leyla Bədirbəyliyə məni Mamayeva roluna dublyor kimi verdilər. Leyla xanım mənə yol göstərdi, imkan verdi və mən teatrda qaldım. Premyerada bu rolu mən oynamalı oldum. İlk dəfə tərəf-müqabillərim İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, Səməndər Rzayev kimi sənətkarlarla səhnəni bölüşdüm".

Aktrisa Akademik Milli Dram Teatrının səhnəsinə növbəti dəfə Xalq artisti, rejissor Həsənağa Salayevin quruluş verdiyi Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" tamaşasında Səfurə İbrahimovanın dublyoru kimi çıxış edib.



1974-cü ildən Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul olunan Zərnigar Ağakişiyeva bu sənət ocağında fəaliyyət göstərən dövrünün tanınmış, məşhur sənətkarları arasında seçilməyi, tamaşaçıların diqqətini cəlb etməyi, rəğbətini qazanmağı bacarıb.

## Qırx illik sənət yolu...

Zərnigar Ağakişiyeva aktrisa kimi uzun illər fəaliyyət göstərib. O, müxtəlif tamaşalarda bir-birindən maraqlı, fərqli rollar ifa edib. Aktrisa "Meşşanlar"da Tatyana, "Vaqif"də Xuraman, "Kölgələr pıçıldaşır"da Şəfəq, "Kimdir haqlı?"da Zeynəb, "Təhminə və Zaur"da Zivər, "Qəribə oğlan"da Kəmalə, "Mahnı dağlarda qaldı"da Fəxrəndə xanım, "Dişi canavar"da Bernardo, "Lənkəran xanının vəziri"ndə Pəri xanım, "Poçt şöbəsində xəyal"da Qadın, "Eşq və intiqam"da Yasəmən, "Dar ağacı"nda Ana, "Kəllə"də Qadın, "Ölülər"də Kərbəlayi Fatma və başqa rolları böyük ustalıqla yaradıb.

Aktrisa yalnız teatrda fəaliyyət göstərməyib. O, Azərbaycan Dövlət Televiziyasının hazırladığı bir sıra tamaşalarda da rollar ifa edib.

İstedadı kinorejissorların da diqqətindən kənarda qalmayıb. Aktrisa Zərnigar Ağakişiyeva Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Yol əhvalatı", "Dantenin yubileyi", "Yarasa", "Hər şey yaxşılığa doğru", "Təhminə", "Özgə həyat", "Yuxu", "Gözəl-gözəl dünya" filmlərində rol alıb. Zərnigar Ağakişiyeva böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, ona tapşırılan hər bir rolu eyni həvəslə, məharətlə oynayıb.

İstər tamaşalarda, istərsə də filmlərdə rejissorların ona həvalə etdikləri hər bir rolu elə ifa edib ki, tamaşaçıları inandıra bilib. Aktrisa müsahibələrinin birində bu barədə danışıb: "Səhnəyə çıxarkən tamaşaçı sənin aktyor olduğunu unutmalıdır. Hətta sənin kim olduğunu da unutmalıdır. Yəni aktyor səhnəyə çıxan anda tamaşaçılar rol ifaçısı deyil, canlı bir obrazla qarşılaşmalıdırlar".

Vaxt olub ki, arzusunda olduğu rolları ondan əsirgəyiblər. 1989-1992-ci illərdə səhnədə cəmi iki rol verilməsi onun bir müddət teatrdan uzaqlaşmasına səbəb olub. Ancaq qəlbi Zərnigar Ağakişiyevanı hər zaman özünə doğma bildiyi sənət məbədinə çəkib.

Ömrünün son illərində səhnədən uzaqlaşmasını isə yaşı və səhhətində yaranmış problemlərlə əlaqələndirib. Zərnigar Ağakişiyeva uzun illər idi ki, şəkər xəstəsi idi.

Azərbaycan incəsənətinə xidmətləri diqqətdən kənarda qalmayıb. Zərnigar Ağakişiyeva 1982-ci ildə Əməkdar artist, 2000-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. 2014-cü ildə "Şöhrət" ordeni ilə təltif edilib. 2015-ci ildə Cəfər Cabbarlı mükafatına layiq görülüb. Prezident təqaüdçüsü idi.

Ömrünün çoxu teatrda, kino çəkilişlərində, qastrollarda keçmişdi. O, coşqun illər ötüb keçmişdi. Aktrisanın son illəri tənhalıq içində keçirdi...

Teatr və kino aktrisası, Xalq artisti Zərnigar Ağakişiyeva 2018-ci ildə Bakıda, öz evində ürək çatışmazlığından vəfat edib. 2018-ci il fevralın 9-da öz vəsiyyəti nəzərə alınaraq Quba şəhər qəbiristanlığında, valideynlərinin yanında torpağa tapşırılıb.

Milli teatrımızın 140 illiyi təntənəli şəkildə qeyd olunanda sənətkar təvazökarlıqla demişdi: "Bu dövrün 40 ili mənim yaradıcılığımın payına düşür. Hər tamaşada payıma bir rol düşüb və mən bacardığım qədər rollarımın dərinliyinə varmışam".

Teatr və kino sənətinə bəxş etdiyi bir-birindən maraqlı, bənzərsiz rollar ona əbədi tamaşaçı rəğbəti qazandırıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Elman QULİYEV: "Dastanlar hər bir xalq üçün tarix və mədəniyyət göstəricisidir"



**"Türklər dünyanın qədim və qüdrətli xalqlarındandır. XX əsr türk ədəbiyyatının məşhur nümayəndəsi Əziz Nesinin təbirincə desək, "Hər bir millətin böyüklüyü onun əhalisinin çoxluğuna və ərazisinin genişliyinə görə müəyyənləşdirilmir. Hər bir xalqın böyüklüyü onun tarix və mədəniyyətinin qədim və zənginliyinə görə müəyyənləşdirilir". Bu mənada türklər öz tarix və mədəniyyətlərinin qədimliyi, zənginliyi baxımından dünya xalqları arasında böyüklüyünü, aparıcılığını tam şəkildə təsdiqləyə biliblər".**

Bunu AZƏRTAC-a açıqlamasında filologiya elmləri doktoru, professor Elman Quliyev deyib.

"Türklərin bəşər sivilizasiyasının inkişafında, dünya ictimai-siyasi modelinin və ədəbi-bədii fikrinin formalaşmasında oynadığı rolu nəzərə alsaq, bu xalqın fərqli tarix və fərqli mədəniyyətə sahib olduqları təsdiqini tapar. Şübhə yoxdur ki, dastanlar hər bir xalq üçün tarix və mədəniyyət göstəricisidir. Dastandakı hadisələr tam anlamda əsl tarix olmasalar da, dünyanın yaranması, tarixin başlanması, insanlığın, cəmiyyətin formalaşması və ayrı-ayrı xalqların özünəməxsus həyata baxışları haqqında təsəvvür yaratmaq baxımından əhəmiyyət daşıyır. Belə demək mümkünsə, dastanlar millətin tarixi, yaşayış yerləri, adət-ənənəsi, psixologiyası, inancları, həyata baxışları və s. barədə məlumat verən ilkin qaynaqlardan biridir. Çünki dastanlar kök və ruh etibarilə həm tarixə bağlanır, həm də tarixi əks etdirir", - deyə professor deyib.

## Sakit MƏMMƏDOV: "Məqsədimiz türk dünyası rəssamlarını dünyaya daha yaxından tanıtmaqdır"

**İstanbulda türkdilli dövlətlərin tanınmış rəssamlarının Türkiyə xalqının böyük lideri Qazi Mustafa Kamal Atatürkün Anım Gününə həsr olunan sərgisi açılıb.**

Azərbaycanın Xalq rəssamı, Türk Dünyası Rəssamlar Akademiyasının prezidenti professor Sakit Məmmədovun kuratorluğu ilə baş tutan sərgidə türkdilli dövlətlərdən 12 rəssamın 106 əsəri nümayiş etdirilir. Sərginin açılışında Türkiyə ictimaiyyətinin nümayəndələri, Azərbaycanın qardaş ölkədə fəaliyyət göstərən dövlət qurumlarının təmsilçiləri, eləcə də çox sayda sənətsevər iştirak edib.

Bununla bağlı AZƏRTAC-a müsahibə verən Sakit Məmmədov akademiyanın yaranması və fəaliyyət istiqamətləri barədə danışıb. Artıq uzun zamandır türk dünyası rəssamlarını bir araya gətirərək, onların sərgilərini təşkil etdiyini bildirən Sakit Məmmədov deyib: "Üç il əvvəl bizim Özbəkistan Rəssamlıq Akademiyasında geniş görüşümüz oldu. Orada türkdilli dövlətlərin birgə rəssamlıq akademiyasının yaradılması ilə bağlı qərar verdik. Rusiyada belə akademiya hələ XVIII əsrdə yaranıb. Nəhayət ki, biz də bu arzumuza bu il İstanbulda baş tutan böyük bir toplantı ilə nail olduq. Fikrimcə bu, çox mühüm bir hadisədir. Bir neçə gün əvvəl Xalq rəssamları da daxil olmaqla, altı türkdilli dövlətin hər birindən on professorun iştirakı ilə akademiya təsis edildi və yekdilliklə məni akademiyanın həm İdarə Heyətinin sədri, həm də prezidenti seçdilər. Akademiyamız fəaliyyətə başlayıb və artıq 12 rəssama akademik ünvanı vermişəm. Onlardan beşi fəxri,



digərləri isə akademiyanın həqiqi üzvü adını alıblar".

Akademiyanın ilk sərgisinin türk ədəbiyyatının görkəmli nümayəndəsi Çingiz Aytmatovun xatirəsinə həsr olunduğunu və İstanbulun ən mötəbər məkanlarından olan Zorlu Performans Sənətləri Mərkəzində "Ulu bozqırın ruhu" mövzusunda açdıqlarını xatırladan Xalq rəssamı sözlərinə belə davam edib: "Bu, ikinci sərgimizdir və çox böyük maraq doğurduğunu görürük. Növbəti sərgimizi dekabr və ya yanvar aylarında Azərbaycanda keçirəcəyəm. Bakıda olacaq sərgidə də bir neçə rəssama akademik adının verilməsi nəzərdə tutulur. Artıq akademiyanın qızıl medal və diplomları hazırlanıb və gələcəkdə tanınmış rəssamlara təqdim ediləcək. Yəni çox gözəl planlarımız var".

Bundan əvvəl Türkiyə, Macarıstan, Özbəkistan, Qırğızıstan kimi bir çox ölkədə bir neçə dəfə sərgi açdığını qeyd edən professor bildirib ki, bu sərgiyə də türk dünyasının ən tanınmış rəssamları dəvət edilib: "Bundan sonra Böyük Britaniya, Almaniya və ABŞ-də sərgilər təşkil edəcəyəm. Burada əsas məqsəd akademiyanın vasitəsilə türk dünyası rəssamlarını dünyaya daha yaxından tanıtmaqdır".

Oktyabrda İstanbulda Avropa Senatının Zirvə toplantısının keçirildiyini deyən Xalq rəssamı söyləyib ki, Avropa Senatının fəxri Senatoru olaraq bu toplantıda iştirak edib: "Oradakı geniş çıxışımda həm Azərbaycanın, həm türk dünyası rəssamlarını əhatə etdim. Hər tədbirdə əsas vurğunu öz Vətənimə edirəm və hər dəfə də Azərbaycanın Qafqazın mədəniyyət paytaxtı olduğunu deyirəm. Azərbaycanın mədəniyyət xadimi olduğum üçün fəxr edirəm və öz mədəniyyətimizi dünyaya göstərməyə çalışıram. Akademiyanın prezidenti olaraq türk dünyası rəssamlarının dünyada tanınmasını təşkil etmək üçün əlimdən gələni edəcəyəm".

# Donald Tramp müvəqqəti büdcəni imzalayıb

## ABŞ tarixində ən uzunmüddətli şatdaun başa çatıb

ABŞ Nümayəndələr Palatası büdcə layihəsinə səs verib və Prezident Donald Tramp tezliklə onu qanuna çevirib. Federal hökumət rekord 43 günlük bağlanmadan - şatdaundan sonra fəaliyyətini bərpa edir.



Müvəqqəti büdcə çərşənbə axşamı, Nümayəndələr Palatasının 222 üzvü onu dəstəklədikdən 2 saat sonra imzalanması üçün Prezident Donald Trampa təqdim edilib. Onun təsdiqlənməsi üçün sadə səs çoxluğu tələb olunurdu. Büdcə layihəsi bundan əvvəl ABŞ Senatı tərəfindən təsdiq edilmişdi. Hazırkı Palatada respublikaçılar 219 yerə, demokratlar 214 yerə malikdirlər (cəmi 433 yer, hazırda iki yer boşdur), sadə səs çoxluğu 217-dir. Lakin çərşənbə axşamı Konqresin 4 üzvü Palatada yox idi - 3 respublikaçı və 1 demokrat. Bu, büdcə layihəsinin qəbul edilməsi üçün tələb olunan həddi 215 səsə endirib və nəticədə 7 səs fərqlə aşılıb.

Bu sənədin qəbulu təkcə 216 respublikaçının deyil, həm də 6 demokratın dəstəklədiyi üçün mümkün olub. Prezident müvəqqəti büdcəni imzaladıqdan sonra hökumət fəaliyyətini bərpa edib və ABŞ tarixində ən uzunmüddətli bağlanma sona çatıb. Əvvəlki rekord (35 gün) da Trampın dövründə - onun ilk prezidentliyi zamanında qeydə alınmışdı.

Çərşənbə günü qəbul edilən büdcə qanun layihəsi federal hökumətin 30 yanvar 2026-cı ilə qədər, 2 aydan bir qədər çox müddətə fəaliyyət göstərməsinə imkan verəcək. Qəbul edilmiş büdcə qanun layihəsi bütün federal departamentlərin və agentliklərin fəaliyyətini bərpa edəcəyinə və 30 yanvar 2026-cı ilə qədər maliyyələşdiriləcəyinə zəmanət verir. Reutersin məlumatına görə, bir çox dövlət işçisi artıq cümə axşamı günü işə qayıtmaq üçün bildiriş alıb. Amma Bloomberg agentliyinin xəbərinə görə, federal agentliklərin və xidmətlərin normal fəaliyyətə qayıtması bir neçə gün, bəlkə də bir həftə çəkəcək. Hökumətin bağlanması səbəbindən bu payız dayandırılan bəzi proqramlar, o cümlədən aşağı gəlirli ailələr üçün SNAP ərzaq proqramı növbəti maliyyə ilinin sonuna, yəni 2026-cı ilin sentyabr ayına qədər qəbul edilmiş büdcə hesabına maliyyələşdiriləcək.

Xatırladaq ki, demokratların bağlanma zamanı əsas tələbi, 24 milyon amerikalı üçün tibbi sığortanı daha əlverişli edən vergi güzəştlərinin uzadılması müddəasının daxil edilməsi idi. Lakin respublikaçılar geri çəkilmədilər və yalnız dekabr ayında tibbi sığorta subsidiyalarının uzadılması ilə bağlı ayrıca səsvermə keçirməyə razı oldular. Bununla belə, müvafiq tədbirin Senat tərəfindən təsdiqlənəcəyinə dair heç bir zəmanət yoxdur və Nümayəndələr Palatasının spikeri Mayk Conson hələ vergi güzəştlərini aşağı palatada səsverməyə çıxaracağını təsdiqləməyib.


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat


AZƏRBAYCAN
İlk növbədə XALQA XİDMƏT...

Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.


# Arabir yağış yağacaq

Azərbaycanda noyabrın 14-nə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı gözlənilir. Cənub-şərq küləyi gündüz şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 9-12, gündüz 15-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, duman olacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-10, gündüz 15-20, dağlarda gecə 3-7, gündüz 10-15 dərəcə isti olacaq.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


# İraqda keçirilən ümumi seçkilərin qalibi baş nazirin koalisiyası oldu



İraqda keçirilən ümumi seçkilərin qeyri-rəsmi nəticələrinə görə, Baş nazir Məhəmməd Şiə əl-Sudaninin rəhbərlik etdiyi "Yenidənqurma və İnkişaf" koalisiyası ən çox səs toplayaraq qalib olub.

Seçkilərin nəticələri İraqın Müstəqil Ali Seçki Komissiyasının sədri, hakim Ömər Əhməd Məhəmməd və komissiya üzvləri tərəfindən keçirilən mətbuat konfransında açıqlanıb.

Bildirilib ki, paytaxt Bağdadda Baş nazir Sudaninin rəhbərlik etdiyi "Yenidənqurma və İnkişaf" koalisiyası birinci yeri tutub. Keçmiş parlament spikeri Məhəmməd Halbusinin Təqaddum Partiyası ikinci, keçmiş Baş nazir Nuri əl-Malikinin "Qanun Dövləti" koalisiyası üçüncü yerə sahiblənib. Şiə siyasi və dini lideri Əmmar Həkimin rəhbərlik etdiyi Milli Dövlət Qüvvələri Alyansı dördüncü, Əsaib Əhlilhəq hərəkatı ilə əlaqəli "Sadiqun" siyahısı beşinci olub. Mosulda isə Məsud Bərzaninin rəhbərlik etdiyi Kürd Demokrat Partiyası (KDP) birinci, Halbusinin partiyası ikinci, Sudaninin koalisiyası üçüncü yerdədir. Ərbildə də KDP birinci olub. Kürdüstan Yurtsevərlər Birliyi (KYB) ikinci, Duruş Hərəkatı üçüncü, Yeni Nəsil Hərəkatı dördüncü yeri tutub. Bəsrədə qubernator Əsəd İdaninin Tasmim koalisiyası ən çox səs toplayaraq ilk yerə yiyələnib. "Sadiqun" siyahısı ikinci, Sudaninin koalisiyası üçüncü, Malikinin koalisiyası isə dördüncü olub. Ənbarda isə Halbusinin partiyası qalib gəlib. Süleymaniyyədə KYB birinci, Duruş Hərəkatı ikinci, Yeni Nəsil Hərəkatı isə üçüncü yerə sahiblənib. Duhokda KYB birinci, İslam Birliyi Partiyası (Yekgirtu) ikinci və Duruş Hərəkatı üçüncü yerdə qərarlaşıb. Səlahəddində Halbusi birinci, Sudani ikinci, "Əzim" koalisiyası üçüncü yeri qazanıb. Nəcəf və Kərbəla şəhərlərində Sudani qələbə qazanıb, Vasitdə isə onun liderliyindəki koalisiya üçüncü yerlə kifayətlənib. Musanna qubernatorluğunda Sudani yenə birinci, Malikinin koalisiyası ikinci yeri tutub. Meysan və Zikar, Babil və Qadisiya əyalətlərində Baş nazir Sudaninin rəhbərlik etdiyi "Yenidənqurma və İnkişaf" koalisiyası liderliyi ələ keçirib. Kərkük şəhərində KYB birinci, Halbusinin Təqaddum Partiyası ikinci, "İraq Türkmənlərinin Birləşmiş Cəbhəsi" siyahısı üçüncü, KDP isə dördüncü, Ərəb alyansı beşinci, "Əzim" koalisiyası altıncı olub. Diyalada şiə milis lideri Hadi Əmiri və onun "Bədir" hərəkatı seçkiləri birinci, Halbusinin partiyası ikinci, Xamis Xənçərin rəhbərlik etdiyi "Siyadə" alyansı üçüncü yerlə başa vurublar.

Baş nazir Sudani koalisiyasının qələbəsini elan edərək deyib:

"Yenidənqurma və İnkişaf" alyansı birinci yeri tutdu, çünki o, "İraq birinci" prinsipinə inanır. İraq övladlarının fədakarlığı sayəsində ölkəmiz həmişə prioritetimiz olaraq qalacaq. İş, quruculuq və uğur yolumuzu dəstəklədiyinə görə xalqımıza təşəkkür edirik".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Rəşid İbrahimova oğlu

**EMİN İBRAHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev Rəşid İbrahimova oğlu

**EMİN İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin müavini Mədət Quliyev Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əhməd Əhmədzadə İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və universitetin professor-müəllim heyəti Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Abdürəhman, Adil və Nailə Dadanovlar Rəşid və Firuzə İbrahimovlara əzizləri

**EMİN İBRAHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun kollektivi laboratoriya müdiri r.e.d., professor, "Şöhrət" ordenli

**KAMİL BAYRAMƏLİ OĞLU MƏNSİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4033
Sifariş 2320

Qiyməti 60 qəpik